AZƏRBAYCANIN AVROPA ÜÇÜN ARTAN ROLU

2028-ci ildə Avropanın siyasi elitası Bakıda bir araya gələcək. Qitənin ən çox ehtiyac duyduğu məsələlər məhz Bakıda müzakirə olunacaq.

- Dublin sammiti bir daha Azərbaycanın Avropa üçün artan əhəmiyyətini ortaya qoydu. Enerji təhlükəsizliyi, logistika, bağlantılar və tranzit sahəsində Azərbaycanın yürütdüyü siyasət, həyata keçirilən layihələr bu gün "köhnə qitə" üçün həyati əhəmiyyət daşımaqdadır.
- Avropa İttifaqının yüksək vəzifəli nümayəndələrinin, həmçinin quruma üzv dövlətlərin rəhbərlərinin Bakıya ardıcıl səfərləri Azərbaycan Prezidentinin şəxsi nüfuzunun, ölkəmizin artan gücünün göstəricisi kimi dəyərləndirilə bilər.

SƏHİFƏ 2-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

14 NOYABR ŞƏNBƏ 2026 № 43 (4294) Qiyməti - 60 qəpik www.kaspi.az





DAYANIQLI GƏLƏCƏK NAMİNƏ BİRGƏ TƏŞƏBBÜSLƏR

Türkiyənin Antalya şəhərində COP31 çərçivəsində tədbirlər davam etdirilir. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 11-də COP31 Liderlər Sammitində iştirak ediblər.

SƏHİFƏ 4-də



SON İYİRMİ İLİN ƏN YÜKSƏK GÖSTƏRİCİSİ

Dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz sektorunun payının 60,6 faizə çatdırılması nəzərdə tutulur. Bu, son 20 ilin ən yüksək göstəricisidir. Ekspertlər büdcədəki bu dəyişiklikləri müsbət qiymətləndirirlər.

SƏHİFƏ 7-də



TİBBİ TƏHSİLDƏ YENİ MƏRHƏLƏ

Qarabağ Universitetində tibb təhsilinin təşkili, eləcə də Sumqayıt Dövlət Universitetinin tibb fakültəsi açmaq təşəbbüsü bu sahədə yeni imkanların yaranmasını gündəmə gətirir.

SƏHİFƏ 9-da

"HEÇ KİMƏ İMKAN VERMƏRİK Kİ, BİZİM ARAMIZA GİRSİN"



TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİ SARSILMAZDIR

Ərdoğan-Əliyev danışıqlarının yekunu, tərəflərin tarixi strateji müttəfiqlik bəyannaməsinin imzalandığı Şuşadan dünyaya verdiyi mesajlar iki ölkə arasındakı qardaşlıq bağlarının sarsılmaz olduğunu bir daha ortaya qoydu.

ŞUŞADAN DÜNYAYA VERİLƏN MESAJLAR

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər günündə Azərbaycana səfəri, Şuşanı, Xankəndini ziyarət etməsi, həmçinin azərbaycanlı həmkarı İlham Əliyevlə dövlətlərarası münasibətlərin mövcud durumunu, gələcək perspektivlərini əhatə edən gündəmə dair müzakirələri diqqət çəkir.

QARDAŞ DƏSTƏYİ HEÇ VAXT UNUDULMAYACAQ

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində Türkiyə dövlətinin və ali rəhbərliyinin Azərbaycana siyasi və mənəvi dəstəyini ön plana çəkərək bildirdi ki, həmin günlərdəki "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" bəyanatı heç vaxt unudulmayacaq.

SƏHİFƏ 3-də

Aparılan islahatlar öz nəticəsini verir

BAKI AVTOBUSLARINDA SƏRNİŞİN BUMU



2026-cı ilin oktyabr ayında müntəzəm marşrut avtobusları ilə 53 milyon 921 min 482 sərnişin daşınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 15 faizdən çox artım deməkdir.

Cari ilin ilk doqquz ayında isə avtobuslardan 386 milyon 227 min 196 sərnişin istifadə edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz çoxdur.


SƏHİFƏ 13-də



STRATEJİ TƏRƏFDAŞLARIMIZIN SAYI ARTIR

İlham Əliyev və Endi Börnhem arasında keçirilən görüşdə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" mübadilə olunub.

SƏHİFƏ 5-də



İKT SEKTORUNDA REKORD ARTIM

Bu ilin yanvar-sentyabr aylarında informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunda 2 milyard 57,4 milyon manatlıq məhsul istehsal edilib. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 11,1 faiz çoxdur.

SƏHİFƏ 11-də



VİTRİNDƏKİ BAHALI KOMFORT

Hazır doğranmış, qabığı soyulmuş və qablaşdırılmış meyvə-tərəvəz çeşidləri rəflərdə getdikcə daha çox yer tutur. Lakin bu meyvələri alarkən diqqət edilməli olan çox ciddi məqamlar da var.

SƏHİFƏ 14-də



500 məktəb yeni mexanizmlə maliyyələşir
SƏHİFƏ 10-da



Almaniya çətin dilemma qarşısında
SƏHİFƏ 8-də



Kiçik sahədən böyük gəlir
SƏHİFƏ 12-də



Qeyri-adi yumor, sevgi və pul oyunu
SƏHİFƏ 15-də



Futbol Xankəndiyə qayıdır
SƏHİFƏ 16-da

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

AZƏRBAYCANIN AVROPA ÜÇÜN ARTAN ROLU

2028-ci il Avropanın siyasi elitası Bakıda bir araya gələcək. Qitənin ən çox ehtiyac duyduğu məsələlər məhz Bakıda müzakirə olunacaq.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan növbəti dəfə "Avropa Siyasi Birliyi"nin sammitində ən ali səviyyədə təmsil olundu. Prezident İlham Əliyevin Dublin sammitində iştirakı, keçirilən görüşlər, ölkəmizin Avropa üçün artan əhəmiyyətinin vurğulandığı bəyanatlar xüsusi qeyd edilməlidir.





AZƏRBAYCAN QAZ TƏCHİZATINI ARTIRMAĞI PLANLAŞDIRIR

Dövlət başçısı noyabrın 12-də "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısının açılış plenar sessiyasında iştirak edib. "Avropa - güclü, təhlükəsiz və əlaqəli" mövzusuna həsr olunan budəfəki Zirvə Toplantısının gündəliyində rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, innovasiyaların təşviqi, nəqliyyat bağlantılarının inkişafı, əlçatan enerji, həmçinin Avropanın təhlükəsizliyi və müdafiəsi məsələləri yer alıb. Builki Toplantıda 50-yə yaxın dövlət və hökumət başçısı iştirak edib.

Prezident İlham Əliyev həmçinin "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda dəyirmi masada da iştirak edib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev gələcəkdə alternativ enerjinin rolunun daha da artacağını deyib. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin roluna toxunan Prezident bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunu qeyd edib. Bildirib ki, o vaxtdan bəri ölkəmiz Aİ-yə qaz təchizatını səkkiz milyard kubmetrdən on üç milyard kubmetrə qədər artırıb. Dövlət başçısı bunun Azərbaycanın ixracının demək olar ki, yarısını təşkil etdiyini deyib. Prezident İlham Əliyev qaz təchizatını artırmağı planlaşdırdığımızı bildirib, bu xüsusda yeni yataqların kəşf edildiyini vurğulayıb.

VOLODİMİR ZELENSKİ VƏ MAYA SANDU İLƏ GÖRÜŞLƏR

Sammit çərçivəsində Prezident İlham Əliyev bir sıra ikitərəfli görüşlər də keçirib. Diqqətçəkən məqamlardan biri odur ki, Prezident İlham Əliyevin beynəlxalq platformalarda keçirdiyi bir sıra ikitərəfli görüşlər məhz qarşı tərəfin müraciəti və sorğusu əsasında təşkil edilib. Davosda, Münhendə və digər platformalarda keçirilən görüşlər məhz bu qaydada baş tutub. Dublin sammiti də bu baxımdan istisna olmadı.

Prezident İlham Əliyev Dublində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, eyni zamanda, özəl sektorun xətti ilə iqtisadi əlaqələrin inkişaf perspektivləri müzakirə olunub, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri məsələsi barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində apardığı bərpa və quruculuq işlərinin Ukrayna tərəfindən də böyük maraqla izlənildiyi qeyd olunub, bu xüsusda ölkəmizin təcrübəsinin Ukrayna üçün də əhəmiyyətli olacağı bildirilib.

Moldova Prezidenti Maya Sandu ilə görüşdə qarşı tərəf ölkəsinin enerji təhlükəsizliyinə göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib.

Yunanıstan Baş naziri Kiriakos Miçotakis ilə görüşdə ölkəmizin Avropanın, o cümlədən Yunanıstanın enerji təhlükəsizliyində oynadığı rol və bu məsələyə verdiyi töhfə vurğulanıb. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxunulub.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə görüş də diqqət çəkir. Antonio Koşta Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. O, Azərbaycan-Aİ dialoqunun və əməkdaşlıq məsələlərinin müzakirəsini davam etdirmək üçün Prezident İlham Əliyevi səfərə dəvət edib.

AVROPA ÜÇÜN STRATEJİ ƏHƏMİYYƏT DAŞIYAN LAYİHƏLƏR







Dublin sammiti bir daha Azərbaycanın Avropa üçün artan əhəmiyyətini ortaya qoydu. İstər enerji təhlükəsizliyi, istərsə də logistika, bağlantılar və tranzit sahəsində Azərbaycanın yürütdüyü siyasət, həyata keçirilən layihələr bu gün "köhnə qitə" üçün həyati əhəmiyyət daşımaqdadır. Aİ-nin yüksək vəzifəli nümayəndələrinin, həmçinin quruma üzv dövlətlərin rəhbərlərinin Bakıya ardıcıl səfərləri Azərbaycan Prezidentinin şəxsi nüfuzunun, ölkəmizin artan gücünün göstəricisi kimi dəyərləndirilə bilər. Azərbaycanın enerji və nəqliyyat sahəsində yaratdığı strateji imkanlar ölkəmizin beynəlxalq siyasi çəkisinin mühüm dayaqlarındandır. Cənub Qaz Dəhlizi, Orta Dəhliz və Xəzər üzərindən inkişaf etdirilən yeni bağlantılar ölkəmizin strateji əhəmiyyətini çox böyük bir coğrafiyada əhəmiyyətli dərəcədə artırmaqdadır. Dublin Sammitinin əsas müzakirə mövzuları sırasında enerji təchizatı və bağlantıların yer alması Azərbaycanın artıq konkret layihələr həyata keçirdiyi bu istiqamətlərin Avropa üçün strateji əhəmiyyət daşıdığını göstərir.

AVROPANIN SİYASİ ELİTASI AZƏRBAYCANDA BİR ARAYA GƏLƏCƏK

Sammit çərçivəsində dünya liderlərinin Azərbaycanın Avropa üçün strateji əhəmiyyətinə dair açıqlamaları, 2028-ci il "Avropa Siyasi Birliyi"nin sammitinin ölkəmizdə keçiriləcəyinə vurğu etmələri də diqqət çəkir.

Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova bildirib ki, "Avropa Siyasi Birliyi"nin sammitinin 2028-ci ildə Azərbaycanda keçirilməsi etimad göstəricisidir. Bu, Azərbaycanın həm də ciddi sabitlik amili kimi qəbul edildiyini göstərir. "Əgər Azərbaycan bu gün buradadırsa və növbəti görüş məhz orada keçiriləcəksə, nəticə belədir: bəli, Avropa İttifaqı münasibətlərini Avrasiya və Asiya istiqamətində genişləndirir. Bu prosesdə Azərbaycanın rolu unudulmamalıdır", - deyə o bildirib.

Bolqarıstanın Baş naziri Rumen Radev Azərbaycanla əlaqələrin inkişaf etdiyini və bu dostluqdan, əməkdaşlıqdan məmnun olduğunu bildirib.

Beləliklə, 2028-ci il Avropanın siyasi elitası Bakıda bir araya gələcək. Qitənin ən çox ehtiyac duyduğu məsələlər Azərbaycanda müzakirə olunacaq.



TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİ SARSILMAZDIR

Ərdoğan-Əliyev danışıqlarının yekunu, tərəflərin tarixi strateji müttəfiqlik bəyannaməsinin imzalandığı Şuşadan dünyaya verdiyi mesajlar iki ölkə arasındakı qardaşlıq bağlarının sarsılmaz olduğunu bir daha ortaya qoydu.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakı və Ankara arasındakı münasibətlərdə müşahidə edilən dalğalanmalar nəhayət ki, arxada qaldı. İki ölkənin ali rəhbərliyinin təşəbbüsü öz əllərinə alaraq proseslərə məqamında müdaxilə etmələri Azərbaycan-Türkiyə birliyinin güclənməsindən narahat olan, yaşananları bir fürsət olaraq görənlərə tutarlı cavab oldu.

ŞUŞADAN DÜNYAYA VERİLƏN MESAJLAR

Bu baxımdan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər günündə Azərbaycana səfəri, Şuşanı, Xankəndini ziyarət etməsi, həmçinin azərbaycanlı həmkarı İlham Əliyevlə dövlətlərarası münasibətlərin mövcud durumunu, gələcək perspektivlərini əhatə edən gündəmə dair müzakirələri diqqət çəkir. Ərdoğan-Əliyev danışıqlarının yekunu, tərəflərin tarixi strateji müttəfiqlik bəyannaməsinin imzalandığı Şuşadan dünyaya verdiyi mesajlar iki ölkə arasındakı əlaqələrin sarsılmaz olduğunu bir daha ortaya qoydu. Bu vurğu dövlət başçılarının mətbuata birgə bəyanatında dominantlıq təşkil etdi.



"ONLARIN ARZULARI ONLARIN GÖZLƏRİNDƏ QALACAQ"

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində Türkiyə dövlətinin və ali rəhbərliyinin Azərbaycana siyasi və mənəvi dəstəyini ön plana çəkərək bildirdi ki, həmin günlərdəki "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" bəyanatı heç vaxt unudulmayacaq. Dövlət başçısı bir daha "Dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur" bəyanatını təkrarladı. Azərbaycan Prezidenti Bakı-Ankara münasibətlərinin əsasında dayanan ortaq dəyərləri də qeyd edib: "Bizi birləşdirən ortaq tarixdir, etnik köklərdir, dilimizdir, ədəbiyyatımızdır, mənəvi dəyərlərimizdir. Bu, böyük sərvətdir və bu sərvət üzərində, bu güclü təməl üzərində bu gün dövlətlərarası münasibətlər də inkişaf edir. Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar. Onların arzuları onların gözlərində qalacaq. Biz - iki xalq, ilk növbədə, iki lider bu sərvəti qoruyuruq və heç kimə imkan vermərik ki, bizim aramıza girsin, yaxud da öz şəxsi maraqları naminə bizim birliyimizə, qardaşlığımıza, həmrəyliyimizə kölgə salsın". Dövlət başçısı bir daha qeyd edib ki, "Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır".



"Birliyimiz daim sarsılmaz olacaq"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da Azərbaycan-Türkiyə strateji müttəfiqliyi ilə bağlı bəyanatı diqqət çəkdi. Qardaş ölkənin Prezidenti bildirdi ki, bu Şanlı Zəfər Azərbaycanın haqlı mübarizəsinin ən gözəl nümunəsi və bütün Türk coğrafiyasının qürur mənbəyi olmaqda davam edir: "Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatmışdır. "Bir millət, iki dövlət" şüarı ilə tərif etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahlarımıza işıq tutan sönməz bir məşəldir. Qardaşlığımız ortaq dilin, tarixin və mədəniyyətin daha çox fövqündədir. Bakının sevincini Ankaranın sevinci, Şuşanın qürurunu bütün millətimizin qüruru bilməyimiz bundan irəli gəlir. 2021-ci il iyunun 15-də Şuşada imzaladığımız Bəyannamə nəticəsində müttəfiqlik münasibətləri ilə möhkəmləndirdiyimiz bu qardaşlığımızı zəiflətmək istəyənlər dünən olduğu kimi bu gün də, sabah da hədəflərinə əsla çata bilməyəcəklər. Allahın izni ilə birliyimiz daim sarsılmaz olacaqdır".

Bölgəmizdə sülh və sabitliyin təməli

Hər iki Prezidentin Şuşadan dünyaya bəyan etdiyi birlik, bərabərlik və strateji müttəfiqliyimizin sarsılmazlığı bir daha Türkiyə-Azərbaycan münasibətlərinin təməl prinsiplərinin nə dərəcədə sağlam olduğunu göstərdi. Bərabərhüquqluluq, müstəqil xarici siyasətə hörmət, fikir ayrılıqlarının bu çərçivədə qarşılıqlı dialoq ilə müzakirəsi, ən çətin anlarda belə dövlətin ali rəhbərliklərinin müxtəlif məsələləri masaya yatırmaq iradəsi Bakı-Ankara əməkdaşlığının diplomatik münasibətlər çərçivəsini aşaraq tamamilə fərqli müstəviyə keçdiyinin əyani sübutudur. "Bir millət, iki dövlət" prinsipinə əsaslanan qardaşlıq bağlarının aşa bilməyəcəyi maneə yoxdur. Bu gün Cənubi Qafqaz da daxil olmaqla, çox böyük coğrafiyada sülh, əməkdaşlıq və sabitliyin təmin olunmasında Azərbaycan-Türkiyə müttəfiqliyi sözün əsl mənasında əsas indikator rolunu oynayır.



COP31-İN LİDERLƏR SAMMİTİNDƏ İŞTİRAK

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı səfərinin ardından çox qısa müddətdə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri də qeyd olunanların sübutudur. Xatırladaq ki, noyabrın 11-də Türkiyənin Antalya şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının (COP31) Liderlər Sammiti keçirilib. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər. Türkiyə Prezidenti çıxışında əvvəlki COP sədrliklərinin təcrübələrini bölüşdüklərinə görə Azərbaycana və Braziliyaya təşəkkürünü bildirib.

Azərbaycanın COP29-a ev sahibliyi zamanı əldə etdiyi zəngin təcrübəni qardaş Türkiyə ilə bölüşməsi, bu məsələdə Ankaraya hərtərəfli dəstək nümayiş etdirməsi də strateji müttəfiqliyimizin tək ikitərəfli yox, həm də beynəlxalq miqyaslı olduğunun başqa bir təzahürüdür.

DAYANIQLI GƏLƏCƏK NAMİNƏ BİRGƏ TƏŞƏBBÜSLƏR

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva COP31 Liderlər Sammitində iştirak ediblər.



F. ABASOĞLU

Türkiyənin Antalya şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində tədbirlər davam etdirilir. Qeyd edək ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 11-də COP31 Liderlər Sammitində iştirak ediblər.

HEYDƏR ƏLİYEV FONDUNUN PAVİLYONU İLƏ TANIŞLIQ

Heydər Əliyev Fondu da Antalyada davam edən COP31 çərçivəsində pavilyonla təmsil olunur. Pavilyon Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Tullantı Fondunun birgə təşəbbüsü əsasında yaradılıb.

Belə birgə pavilyonun yaradılması ideyası ilk dəfə 2024-cü ildə Bakıda keçirilən COP29 zamanı yaranıb. Həmin konfrans çərçivəsində təşkil edilən pavilyon ən çox ziyarət edilən pavilyonlardan biri olub.

Pavilyonda Heydər Əliyev Fondunun sosial, mədəniyyət, təhsil, səhiyyə, yenidənqurma və bərpa, ətraf mühitin mühafizəsi və digər istiqamətlərdə həyata keçirdiyi layihələr foto və videomateriallar vasitəsilə təqdim olunur.

Burada hər iki fondun fəaliyyətinə dair müxtəlif materiallarla yanaşı, interaktiv layihələr də nümayiş etdirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da noyabrın 11-də Azərbaycan pavilyonunda olub. Pavilyonla tanış olan Leyla Əliyevaya burada nümayiş etdirilən stendlər və təqdim edilən layihələr barədə məlumat verilib.

Xatırladaq ki, pavilyonda Azərbaycanın şəhərləri, təbiəti, iqlimi, təhsil və səhiyyə sistemləri, turizm imkanları, nəqliyyat infrastrukturu barədə məlumatlar qabaqcıl texnoloji imkanlar vasitəsilə təqdim olunur. Burada ziyarətçilər Azərbaycanın milli mətbəx nümunələrindən də dadırlar.

Antalyada Sıfır Tullantı Muzeyinin açılışında iştirak

COP31 çərçivəsində noyabrın 12-də Sıfır Tullantı Muzeyinin açılışı da olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alyona Əliyeva, COP31-də iştirak edən dövlət və hökumət başçılarının xanımları, beynəlxalq təşkilatların nümayəndələri, eləcə də BMT-nin Sıfır Tullantı üzrə Yüksək Səviyyəli Şəxslər Məsləhət Şurasının üzvləri açılış mərasimində iştirak ediblər. Muzeyin açılışını bildirən lent tədbir iştirakçılarının iştirakı ilə kəsilib. Türkiyənin Sıfır Tullantı Fondu tərəfindən COP31 çərçivəsində yaradılan muzey 2017-ci ildə əsası qoyulan Sıfır Tullantı Layihəsinin milli və beynəlxalq miqyasda inkişaf yolunu əks etdirir.

Muzeyin əsas məqsədi gündəlik həyatda istifadə olunan əşyaların ömrünün uzadılması, təbii ehtiyatların qorunması və tullantıların azaldılması istiqamətlərində ictimai maarifləndirməni gücləndirməkdir.

"TƏMİZ HAVA, SAĞLAM ŞƏHƏRLƏR: ŞƏHƏRSALMADAN İQLİM FƏALİYYƏTİNƏ"

IDEA İctimai Birliyi və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) tərəfdaşlığı ilə COP31 çərçivəsində "Təmiz hava, sağlam şəhərlər: Şəhərsalmadan iqlim fəaliyyətinə" mövzusunda təşkil olunan tədbir də böyük marağa səbəb olub.

Tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva hava çirklənməsinin insan sağlamlığına təsirlərindən bəhs edərək daha sağlam və dayanıqlı şəhərlərin formalaşdırılmasında ekoloji amillərin nəzərə alınmasının vacibliyini vurğulayıb.

Leyla Əliyeva Azərbaycanın dayanıqlı şəhərsalma təcrübəsi, eləcə də yaşıllıq sahələrinin genişləndirilməsi və ekoloji cəhətdən təmiz nəqliyyatın təşviqi istiqamətində həyata keçirilən tədbirlərə toxunub. O, həmçinin IDEA İctimai Birliyinin "Bizim həyət" layihəsi, ağacəkmə aksiyaları və şəhər mühitinin yaşıllaşdırılmasına yönəlmiş digər təşəbbüslərinin rolunu qeyd edib.

Daha sonra tədbir panel müzakirəsi ilə davam edib. Tədbirdə havanın keyfiyyətinin yaxşılaşdırılması və daha sağlam şəhər mühitinin yaradılması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsinin, dayanıqlı şəhərsalma prinsiplərinin tətbiqinin və iqlim siyasəti ilə ictimai sağlamlıq tədbirlərinin əlaqələndirilməsinin vacibliyi vurğulanıb.

Birgə təşəbbüslərin həyata keçirilməsi imkanları

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva COP31 çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirib. O, BMT-nin Məskunlaşma Proqramının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisinin direktoru Erfan Ali ilə görüşüb.

Görüş zamanı Azərbaycanın dayanıqlı şəhərsalma, ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinə uyğunlaşma istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verilib. Bu xüsusda IDEA İctimai Birliyinin şəhər mühitinin yaxşılaşdırılması, yaşıllıq sahələrinin genişləndirilməsi və ekoloji maarifləndirməyə yönəlmiş layihə və təşəbbüsləri diqqətə çatdırılıb.

Müzakirələr çərçivəsində sahilyanı şəhərlərin iqlim dayanıqlılığının gücləndirilməsi, müvafiq risklərin qiymətləndirilməsi və şəhərsalma kontekstində ekoloji amillərin nəzərə alınmasının vacibliyi vurğulanıb. Bundan əlavə, IDEA İctimai Birliyi və UN-Habitat arasında şəhərlərin yaşıllaşdırılması, dayanıqlı yaşayış mühitinin formalaşdırılması və iqlim dəyişmələrinə uyğunlaşma sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Bu istiqamətdə IDEA İctimai Birliyi və UN-Habitat tərəfindən birgə təşəbbüslərin həyata keçirilməsi imkanlarına toxunulub.

IDEA-WMO ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ EDİLİB

Leyla Əliyeva, həmçinin COP31 çərçivəsində Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) Baş katibi Celeste Saulo ilə görüş keçirib.

Görüşdə iqlim dəyişmələrinin təsirlərinin qiymətləndirilməsi, meteoroloji müşahidələrin təkmilləşdirilməsi və elmi məlumatlardan səmərəli istifadə məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bu xüsusda Azərbaycanda iqlim monitorinqinin gücləndirilməsi, müasir texnologiyaların tətbiqi, eləcə də iqlim hadisələri ilə bağlı erkən xəbərdarlıq sistemlərinin inkişafının əhəmiyyəti qeyd olunub. Müzakirələr çərçivəsində Xəzər dənizinin səviyyəsində müşahidə olunan dəyişikliklərin elmi baxımdan öyrənilməsi imkanlarına toxunulub. Xüsusilə dənizin səviyyəsindəki dəyişikliklərin daha dərindən araşdırılması məqsədilə uzunmüddətli iqlim müşahidələrinin, meteoroloji məlumatların və külək rejiminə dair göstəricilərin birgə təhlili perspektivləri müzakirə edilib.

Bundan əlavə, Azərbaycanda gənc tədqiqatçıların iqlim araşdırmaları sahəsində bilik və bacarıqlarının artırılması, beynəlxalq elmi təcrübə mübadiləsi və müvafiq təlim proqramlarının təşkili istiqamətində IDEA İctimai Birliyi və WMO-nun əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.



İlham Əliyev Nikol Paşinyanla görüşüb

Prezident İlham Əliyev noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşüb.

Liderlər 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə iki ölkə arasında sülhün daha da möhkəmləndirilməsinə yönəlmiş praktiki addımlara, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafına, iqtisadi-ticari münasibətlərə, sərhədlərin delimitasiyasına və etimad quruculuğu tədbirlərinin həyata keçirilməsinə dair müzakirələr aparılıb.

Liderlər bu kontekstdə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişləri, o cümlədən onun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması və layihələndirilməsini, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivlərini müzakirə ediblər.

Yüklərin Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistandan tranziti müsbət hal kimi qeyd olunub. Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən Ermənistana, ümumilikdə 105 min ton yük daşınıb.

Tərəflər, həmçinin Azərbaycan ilə Ermənistan arasında iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları, o cümlədən gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Liderlər ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətini vurğulayıb, transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasını alqışlayıblar.

Liderlər sülh prosesində müsbət dinamikanın qorunub saxlanılmasının, regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə yönəlmiş dialoqun davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.



STRATEJİ TƏRƏFDAŞLARIMIZIN SAYI ARTIR

Prezident İlham Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem arasında keçirilən görüşdə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" mübadilə olunub.

Azərbaycan dünyanın daha bir aparıcı ölkəsi - Böyük Britaniya ilə strateji tərəfdaşlığa dair mühüm sənəd imzalayıb. Qeyd edək ki, hazırda Azərbaycan dünyanın müxtəlif siyasi qütblərini təmsil edən ölkələrlə strateji tərəfdaşlıq münasibətlərinə malik azsaylı dövlətlərdən biridir. Beynəlxalq münasibətlərin həssas bir dönəmdən keçdiyi zamanda ABŞ və Çin kimi iki supergüclə, Rusiya, Türkiyə, Pakistan kimi regional qüvvələrlə, Avropa İttifaqının çoxsaylı üzvləri ilə bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan strateji tərəfdaşlıq kursu Prezident İlham Əliyevin diplomatik zəkasının və uzaqgörən siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilir.

İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞIN MÖVCUD DURUMU

Qeyd edək ki, Dublində Prezident İlham Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem arasında mühüm görüş keçirilib. Öncə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" mübadilə olunub.

Söhbət zamanı bu Bəyannamənin qəbul edilməsinin əlaqələrimizin rəsmi olaraq keyfiyyətcə yeni səviyyəyə qalxmasına xidmət etdiyi vurğulanıb. Hətta bu sənədin qəbulundan əvvəl də Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bir daha qeyd edilib.

Qarşılıqlı hörmət, ortaq maraqlar

Qeyd edək ki, iki ölkə arasında çoxsaylı ikitərəfli sənədlər imzalanıb. Onların arasında 1994-cü il 23 fevral tarixli Dostluq və Əməkdaşlıq haqqında Birgə Bəyannamə və 1998-ci il 21 iyul tarixli Dostluq Münasibətləri və Tərəfdaşlıq haqqında Birgə Bəyannamə əhəmiyyəti ilə seçilir. Təsadüfi deyil ki, bir neçə gün əvvəl mübadilə olunan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamədə də yuxarıda qeyd olunan sənədlərə istinad edilir. Birgə bəyannamədə ikitərəfli əlaqələr qarşılıqlı hörmət, ortaq maraqlara və praktik əməkdaşlığa əsaslanan münasibətlər kimi xarakterizə edilir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, beynəlxalq hüququn prinsiplərinə və normalarına, xüsusən də beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, eləcə də suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmətlə bağlı prinsiplərə sadiqlik bir daha təsdiqlənir.

REGİONAL SÜLH VƏ SABİTLİYƏ DƏSTƏK

Sənəddə qeyd olunur ki, iştirakçılar regional sülh və sabitliyi dəstəkləmək üçün müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi və ümumi təhdidləri yayındırmaq, qarşısını almaq və onlara cavab vermək qabiliyyətlərini artırmaq üçün uzunmüddətli öhdəlikləri ortaq qəbul edirlər. İştirakçılar təlim, potensialın artırılması və qarşılıqlı fəaliyyətə yönəlmiş müdafiə əməkdaşlığını inkişaf etdirəcək və qarşılıqlı maraq doğuran sahələrdə birgə təşəbbüslər də daxil olmaqla, müdafiə sənayesi əməkdaşlığını gücləndirmək imkanlarını araşdıracaqlar. Onlar artan təhlükəsizlik çağırışlarına və təhdidlərinə cavab olaraq genişspektrli təhlükəsizlik prioritetləri üzrə əməkdaşlığı gücləndirəcəklər.

PRİORİTET SEKTORLAR ÜZRƏ UZUNMÜDDƏTLİ ƏMƏKDAŞLIQ

Böyük Britaniya və Azərbaycan bundan sonra bərpaolunan enerji, infrastruktur və xidmətlər də daxil olmaqla, prioritet sektorlar üzrə uzunmüddətli kommersiya tərəfdaşlıqlarını, bilik mübadiləsini və qarşılıqlı fəaliyyəti asanlaşdırmaqla, eləcə də hər iki iqtisadiyyatda iş yerləri, bacarıqlar və dəyər yaradan biznеslərarası əlaqələri təşviq etməklə iqtisadiyyat, ticarət və investisiya sahələrində əməkdaşlığı gücləndirəcəklər. Tərəflər regional və beynəlxalq bağlantıların vacibliyini vurğulayır və sərhədyanı ticarət və investisiyaları asanlaşdıran nəqliyyat, logistika və infrastruktur layihələri ilə yanaşı, Orta Dəhlizin inkişafını da dəstəkləyirlər.

PAŞİNYANIN KONSTİTUSİYA SINAĞI

Ermənistanın Müstəqillik Bəyannaməsinə istinadın yer almayacağı yeni Konstitusiya layihəsinin gələn həftə ictimaiyyətə təqdim ediləcəyi gözlənilir. Bu təşəbbüsdə Paşinyanın nə dərəcədə səmimi olduğunu qarşıdakı aylar göstərəcək.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Ermənistan siyasi gündəmi yenidən qarışıb. Bu dəfə əsas müzakirələr ölkənin yeni konstitusiyası ilə bağlıdır. Baş nazir Nikol Paşinyanın konstitusiyanın dəyişdirilməsi və yeni layihənin müzakirəyə təqdim olunacağına dair bəyanatı Bakıda da diqqətlə izlənilir. Səbəb isə çox sadədir. Yekun sülh müqaviləsinin hüquqi qüvvəyə minməsi üçün Ermənistanın ana qanununda Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

PAŞİNYANIN İKİ SEÇİMİ

Son parlament seçkilərindən əvvəl Ermənistan konstitusiyasında dəyişiklik üçün Paşinyanın iki seçimi var idi. Birincisi, parlamentdə mütləq çoxluğu əldə etmək, digəri isə yeni referendum keçirtmək. Baş nazir seçkilərdə qələbə qazansa da, əlində olan mandat sayı dəyişikliklərin parlament səviyyəsində reallaşdırılması şansını azaldıb. Alternativ variant kimi indi referendumun təşkili qabardılır. Artıq yeni konstitusiya layihəsi ilə bağlı Azərbaycanın da diqqətini cəlb edə biləcək bəzi məqamlar açıqlanıb.

"Joxovurd" qəzeti hakim partiyanın qapalı iclasındakı müzakirələrin yekunlarına istinadən məlumat yayıb ki, Ermənistanın Müstəqillik Bəyannaməsinə istinadın yer almayacağı yeni konstitusiya layihəsi gələn həftə ictimaiyyətə təqdim ediləcək. Nəşrin məlumatına görə, hakim "Vətəndaş Müqaviləsi" partiyasında yeni konstitusiya layihəsinin bir sıra müddəaları ilə bağlı müzakirələr davam edir.

Qeyd edək ki, Ermənistanın Müstəqillik Bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları yer alır. Konstitusiyanın preambulasında istinad edilən Müstəqillik Bəyannaməsində keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin zəruriliyi ilə bağlı bənd var.

FRANSA VƏ TÜRKİYƏ SƏFƏRLƏRİNDƏN SONRA

İndi əsas sual budur ki, Ermənistanın hazırkı iqtidarı bu məsələdə nə dərəcədə səmimidir? Paşinyan həqiqətən də yekun sülhə yaşıl işıq yandıracaq bu dəyişiklikləri edəcəkmi, yaxud buna qadirdirmi?

Son bir neçə ay ərzində Paşinyanın istər hazırda Ermənistanda qüvvədə olan konstitusiya, istərsə də Müstəqillik Bəyannaməsi ilə bağlı bəyanatları diqqət çəkir. Oktyabrın sonlarında keçirdiyi brifinqdə o, ölkənin Müstəqillik Bəyannaməsinin mətninin dövlət əleyhinə olduğunu açıq şəkildə bildirib. "Bu mətnlə müstəqil dövlətin mövcudluğu qeyri-mümkündür", - Paşinyan bildirib. O qeyd edib ki, ölkənin yeni konstitusiyasının qəbul edilməsi "Mülki müqavilə" partiyasının seçkiqabağı proqramına daxil idi. Baş nazir əlavə edib ki, konstitusiyanın yeni layihəsi yaxın vaxtlarda dərc olunacaq.

Bir maraqlı məqam da ondan ibarətdir ki, yeni konstitusiya layihəsinin ictimaiyyətə açıqlanacağı vaxt Paşinyanın Fransa və Türkiyə səfərlərindən dərhal sonra dövriyyəyə buraxılıb. İstər Emmanuel Makron, istərsə də Rəcəb Tayyib Ərdoğanla görüşdə əsas müzakirə olunan məsələlərdən birinin məhz Azərbaycanla sülh prosesi olduğu bəyan edilib. Bu çərçivədə sülhə əngəl olan maneələrin aradan qaldırılmasının da gündəmə gətirildiyi istisna deyil.

Dəyişikliyə qarşı çıxanlar

Ermənistan daxilində sülh prosesinə, o cümlədən konstitusiya dəyişikliyinə qarşı çıxan qüvvələrin keçmiş işğalçı rejiminin qalıntıları olduğu hər kəsə bəllidir. Bu qüvvələrin başında ilk növbədə Koçaryan-Sarqsyan tandemi, həmçinin Rusiyanın dəstək verdiyi oliqarxlar, o cümlədən kilsə-diaspor ittifaqı dayanır. Bu gün həmin qüvvələrin istər referendum, istərsə də parlament çərçivəsində sülhə yol açа biləcək mümkün konstitusiya dəyişikliklərinə qarşı hansı addımlar atmaq imkanında olduqları da maraq doğurur. Paşinyanın bu qüvvələrə qarşı siyasi iradə nümayiş etdirmək iqtidarında olub-olmadığı da ayrıca bir sual işarəsidir. Lakin Ermənistan daxilində cərəyan edən son proseslərə diqqət yetirsək görərik ki, Paşinyan iqtidarı seçkilərdən sonra bu qüvvələrə qarşı müəyyən üstünlük əldə etməyi bacarıb. Qarabağ canilərindən Koçaryan, Rusiyanın dəstəklədiyi oliqarxlar həbsdə, Sarqsyan və kilsə rəhbərliyi isə istintaq altındadır. Diaspor isə münaqişə həllini tapdığı üçün əvvəlki təsir rıçaqlarına malik deyil.

Növbədənkənar parlament seçkiləri ehtimalı

Bu məsələ ilə bağlı Ermənistan siyasi gündəmində daha bir maraqlı məqam diqqət çəkir: növbədənkənar parlament seçkilərinin təşkili. Müxalifət, xüsusilə də revanşistlər bloku qəti şəkildə bu ideyaya qarşı çıxırlar. Səbəb isə hazırkı parlamentdə sülhü əngəlləmək üçün müəyyən üstünlüyə malik olmalarıdır. Lakin Paşinyan iqtidarı bu ideyanı heç də qeyri-mümkün saymır. Ermənistanın Baş naziri ölkənin yeni konstitusiyasının qəbulu üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi imkanını istisna etmir. "Biz yeni layihəni parlamentə göndərəcəyik. Burada alınmasa, başqa ssenariləri, o cümlədən növbədənkənar seçkilərin keçirilməsi imkanını nəzərdən keçirəcəyik" - deyə, o bildirib.

Ermənistan vətəndaşlarının yarısından çoxu da növbədənkənar parlament seçkilərinin keçirilməsini zəruri hesab edir. "Gallup" təşkilatının keçirdiyi sorğunun nəticələrinə əsasən, sorğu iştirakçılarının 33,6 %-i növbədənkənar seçkilərin birmənalı şəkildə zəruri olduğunu, daha 17,1 %-i isə çox güman ki, buna ehtiyac olduğunu hesab edir.

Beləliklə, artıq Ermənistanda konstitusiya dəyişiklikləri və bu çərçivədə sülhə əngəl yaradan ərazi iddiaları maneəsinin aradan qaldırılacağının anonsu verilib. Bu təşəbbüsdə Paşinyanın nə dərəcədə səmimi düşündüyünü, həmçinin Ermənistan cəmiyyətinin Azərbaycanla sülhə nə dərəcədə hazır olduğunu isə qarşıdakı aylar göstərəcək.

SON İYİRMİ İLİN ƏN YÜKSƏK GÖSTƏRİCİSİ

Gələn il üçün dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz sektorunun payının 60,6 faizə çatdırılması nəzərdə tutulur. Bu, son 20 ilin ən yüksək göstəricisidir. Ekspertlər büdcədəki bu dəyişiklikləri müsbət qiymətləndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Gələn il qeyri-neft-qaz sektorunun dövlət büdcəsi gəlirlərində xüsusi çəkisi son 20 ilin ən yüksək səviyyəsinə çatacaq. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində əksini tapıb. 2027-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin (39 milyard 254 milyon manat) 39,4 faizi və ya 15 milyard 480 milyon manatı neft-qaz sektorunun, 60,6 faizi və ya 23 milyard 774 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür. Sənədə əsasən, son beş il ərzində dövlət büdcəsinin gəlirlərinin faktiki icra göstəricilərində qeyri-neft-qaz sektoru üzrə gəlirlərin xüsusi çəkisi 43,3 faizdən 51,9 faizə yüksəlib. 2027-ci ilin dövlət büdcəsinin gəlirlərinin proqnozlarında isə bu göstəricinin son iyirmi ilin ən yüksək həddinə - 60,6 faizə çatdırılması nəzərdə tutulur.

"QEYRİ-NEFT GƏLİRLƏRİ BÜDCƏYƏ YENİ DAYAQ OLACAQ"

Milli Məclisin deputatı Vüqar Bayramovun sözlərinə görə, vergi daxilolmalarında qeyri-neft sektorunun payının artması fiskal dayanıqlılıq baxımından vacibdir: "Əsas məqsədlərdən biri neftdən asılılığın minimuma endirilməsi və qeyri-neft sektorunun dövlət büdcəsinin gəlirlərində payının artırılmasıdır. Bu, büdcəyə enerji sektorundan kənar sahələr hesabına daha çox vəsaitin daxil olmasına imkan yaradır. 2027-ci ilin büdcə layihəsində qeyri-neft-qaz sektorunun payının 60 faizlik həddi keçməsi Azərbaycan iqtisadiyyatı tarixində ən yüksək göstəricilərdən biridir. Bu artımın səbəbləri arasında qeyri-neft sektorundan daxilolmaların yüksəlməsi, iqtisadiyyatın leqallaşdırılması istiqamətində islahatların dərinləşməsi, maliyyə intizamının gücləndirilməsi və qanunvericilikdə edilən dəyişikliklərdən sonra vergi daxilolmalarının artması var. Sahibkarlıq fəaliyyəti genişləndikcə qeyri-neft sektorunun büdcə gəlirlərində payı da yüksəlir. Büdcənin dayanıqlılığının güclənməsi sosial və digər prioritet istiqamətlərə daha çox vəsait ayrılmasına imkan yaradır".

"GƏLƏN İL QEYRİ-NEFT-QAZ GƏLİRLƏRİ 1,6 MİLYARD MANAT ARTACAQ"

Milli Məclisin deputatı Tahir Mirkişili isə 2027-ci ilin dövlət büdcəsi layihəsində qeyri-neft-qaz gəlirlərinin payının 60,6 faizə çatdırılmasını müsbət və əhəmiyyətli dəyişiklik kimi qiymətləndirir: "Sadə dillə desək, dövlət büdcəsinə daxil olacaq hər 100 manatın təxminən 61 manatının qeyri-neft-qaz mənbələrindən əldə edilməsi nəzərdə tutulur. Bu, dövlətin daha geniş gəlir bazasına söykənməsi və neft qiymətlərindəki dəyişikliklərə qarşı dayanıqlılığının artması baxımından vacibdir.

Təqdim olunan rəqəmlərə əsasən, gələn il qeyri-neft-qaz gəlirləri 1,6 milyard manat artacaq, neft-qaz gəlirləri isə 955 milyon manat azalacaq. Deməli, qeyri-neft sektorunun büdcə gəlirlərindəki payının yüksəlməsi həm qeyri-neft daxilolmalarının artması, həm də neft-qaz gəlirlərinin azalması ilə bağlıdır. Müsbət məqam ondan ibarətdir ki, qeyri-neft gəlirlərindəki artım neft gəlirlərindəki azalmanı kompensasiya edir".



"ARTIMIN ƏSAS ŞƏRTİ ƏLAVƏ DƏYƏR YARATMAQDIR"

T.Mirkişilinin fikrincə, bu göstərici büdcənin birbaşa neft gəlirlərindən asılılığının azaldığını göstərsə də, bütövlükdə iqtisadiyyatın neftdən asılılığını yalnız büdcə gəlirlərinin strukturu ilə ölçmək olmaz: "Çünki qeyri-neft müəssisələrinin bir hissəsi dövlət sifarişlərindən, dövlət investisiyalarından və neft gəlirlərinin yaratdığı daxili tələbdən də gəlir əldə edir. Buna görə də iqtisadiyyatın şaxələndirilməsini qiymətləndirərkən qeyri-neft ixracına, özəl investisiyalara, əmək məhsuldarlığına və yaradılan daimi iş yerlərinə də diqqət yetirilməlidir. Əsas məqsəd qeyri-neft biznesinin öz məhsul və xidmətləri, eləcə də rəqabət qabiliyyəti hesabına böyüməsidir".



Vüqar Bayramov

Deputatın sözlərinə görə, qeyri-neft gəlirlərinin davamlı artması üçün emal sənayesi, aqrar məhsulların emalı, logistika, turizm və rəqəmsal xidmətlər kimi sahələrdə əlavə dəyərin yaradılması vacibdir: "Xüsusilə xarici bazarlara məhsul və xidmət ixrac edən müəssisələrin sayının artması həm büdcə gəlirlərinin, həm məşğulluğun, həm də ölkəyə daxil olan valyutanın artmasına töhfə verə bilər. Bunun üçün sahibkarların maliyyəyə çıxışı yaxşılaşdırılmalı, rəqabət mühiti qorunmalı, müqavilələrin icrasına etimad gücləndirilməli, gömrük və vergi prosedurları sadələşdirilməli, peşə təhsili və texnologiyaya investisiyalar artırılmalıdır".



Tahir Mirkişili

"DAYANIQLI GƏLİR MƏNBƏLƏRİ MALİYYƏ SABİTLİYİNİN ƏSAS ŞƏRTİDİR"

İqtisad elmləri üzrə fəlsəfə doktoru Altay İsmayılov isə bildirdi ki, qeyri-neft sektorunun dövlət büdcəsinin gəlirlərində payının artması və qarşıya qoyulan 60,6 faizlik hədəf əhəmiyyətlidir: "Çünki Azərbaycanda büdcə gəlirlərinin böyük hissəsi ənənəvi olaraq neft-qaz sektorunun hesabına formalaşıb. Son illərdə bu nisbətin qeyri-neft sektorunun xeyrinə dəyişməsi büdcə gəlirlərinin strukturunda dəyişiklikdən xəbər verir. Bununla belə, əsas məsələ proqnoz göstəricilərinin yerinə yetirilməsidir. Neft qiymətlərinin dəyişkənliyini nəzərə alsaq, büdcə gəlirlərinin daha dayanıqlı mənbələr hesabına formalaşdırılması maliyyə sabitliyi baxımından vacibdir. Qeyri-neft sektorunun büdcə gəlirlərində payının artması neftdən asılılığın müəyyən qədər azaldığını göstərsə də, bu artım yalnız qeyri-neft sektorunun inkişafı və gəlirlərinin yüksəlməsi ilə bağlı deyil. Neft-qaz sektorunun gəlirlərinin azalması da həmin göstəriciyə təsir edir. Başqa sözlə, neft gəlirləri azaldıqda, qeyri-neft gəlirləri dəyişməsə belə, onların büdcədəki xüsusi çəkisi yüksələ bilər. Çünki bu göstəricilər ümumi gəlirlər daxilindəki nisbət əsasında hesablanır. Buna görə də iqtisadiyyatın neftdən asılılığının real səviyyəsini qiymətləndirmək üçün qeyri-neft sektorunun ÜDM-də payına və artım tempinə, eləcə də qeyri-neft ixracının həcminə və dinamikasına baxmaq lazımdır. Qeyri-neft sektorunun davamlı inkişafı üçün informasiya texnologiyaları, logistika və tranzit sahələri, eləcə də kənd təsərrüfatı və emal sənayesi prioritet istiqamətlər kimi nəzərdən keçirilməlidir. Xüsusilə kənd təsərrüfatı məhsullarının emalının inkişafı əlavə dəyərin yaradılması və qeyri-neft gəlirlərinin artırılması baxımından əhəmiyyətlidir".

A.İsmayılovun fikrincə, büdcə gəlirlərinin şaxələndirilməsi insanların rifahına, sosial və infrastruktur xərclərinə müsbət təsir göstərə bilər: "Lakin bu təsir dolayı xarakter daşıyır və müəyyən zaman tələb edir".



Altay İsmayılov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

ALMANİYA ÇƏTİN DİLEMMA QARŞISINDA



2027-ci il büdcəsində sosial xərclərin azaldılması, müdafiə xərclərinin isə kəskin artırılması ciddi narazılığa səbəb olub. Fikir ayrılıqları Almaniyanın hakim koalisiyası üçün də ciddi siyasi sınaq kimi qiymətləndirilir.



AZƏR NURİYEV

Almaniyada 2027-ci ilin büdcə layihəsi ölkənin siyasi və iqtisadi gündəminin əsas mövzularından birinə çevrilib. Müzakirələrin kəskin xarakter almasının səbəbi Almaniyanın eyni vaxtda bir neçə ciddi problemlə üzləşməsidir. Bunlar iqtisadi artımın zəifləməsi, sənaye sektorunda rəqabət qabiliyyətinin azalması, dövlət borcunun maliyyələşdirilməsi ilə bağlı məhdudiyyətlər, sosial xərclərin artması və müdafiə büdcəsinə əlavə vəsait ayrılması zərurətinin yaranmasıdır.

140 MİLYARD AVROLUQ HƏRBİ BÜDCƏ

2027-ci il üçün hazırlanan federal büdcə layihəsinə əsasən, dövlət xərclərinin həcmi 555,4 milyard avroya çatacaq. Bu da 2026-cı illə müqayisədə təxminən 6 faiz artım deməkdir. Hökumətin maliyyə planında 2030-cu ilədək xərclərin 635,4 milyard avroya yüksəlməsi nəzərdə tutulur. Büdcənin diqqətçəkən məqamlarından biri dövlət investisiyalarının və müdafiə xərclərinin artırılmasıdır. 2027-ci ildə investisiyalar üçün ümumilikdə 117,5 milyard avro ayrılması planlaşdırılır. Müdafiə büdcəsi isə 109,75 milyard avroya çatdırılacaq. Bu, əvvəlki illə müqayisədə 32,7 faiz artım deməkdir. Xüsusi müdafiə fondunun vəsaitləri də nəzərə alındıqda, müdafiə sektoruna ayrılan ümumi maliyyələşmənin təxminən 140 milyard avroya çatacağı gözlənilir.



VƏTƏNDAŞLARIN HƏYATI DAHA DA ÇƏTİNLƏŞƏCƏK

Bu artım Almaniyanın təhlükəsizlik siyasətində baş verən dəyişikliklərlə əlaqədardır. Rusiya-Ukrayna müharibəsi, Avropada təhlükəsizlik arxitekturasının dəyişməsi və NATO çərçivəsində müdafiə öhdəliklərinin genişlənməsi Berlinin hərbi potensialını gücləndirmək istiqamətində əlavə maliyyə ayırmasını zəruri edir. Yerli mediada büdcə layihəsi "əhalinin ən böyük aldadılması" adlandırılıb. Çünki layihədə investisiya anlayışına subsidiyalar, kreditlər və inkişaf etməkdə olan ölkələrə göstərilən yardımlar da daxil edilib. Ekspertlər xəbərdarlıq edirlər ki, büdcə qəbul edilərsə, gələn il Almaniya vətəndaşlarının həyatı daha da çətinləşəcək.



SOSİAL XƏRCLƏR VƏ MÜDAFİƏ PRİORİTETLƏRİ ARASINDA ZİDDİYYƏT

2027-ci il büdcəsi ətrafında mübahisələrin əsas istiqamətlərindən biri sosial siyasətlə müdafiə xərcləri arasındakı balansdır.

Almaniyada həmkarlar ittifaqları və sosial təşkilatlar hökumətin maliyyə siyasətinin aztəminatlı əhali qruplarının hesabından qənaət üzərində qurulmasından narahatdırlar. Onların fikrincə, iqtisadi çətinliklərin yükü əsasən aşağı və orta gəlirli vətəndaşların üzərinə qoyulmamalıdır. Bəs Almaniya sosial dövlət modelini və əhalinin rifahını hansı mexanizmlərlə qoruya bilər? Bu sual təkcə siyasi partiyalar arasında deyil, həm də cəmiyyətin müxtəlif təbəqələri arasında müzakirə predmetidir. Çünki müdafiəyə ayrılan vəsaitin artırılması ilə sosial təminat sisteminin maliyyələşdirilməsi arasında yaranan gərginlik büdcənin gələcək prioritetlərini müəyyənləşdirən əsas məsələlərdən biridir.

İQTİSADİ BÖHRAN, SƏNAYE SEKTORUNDAKI PROBLEMLƏR

Almaniyanın büdcə siyasətini çətinləşdirən digər mühüm amil ölkə iqtisadiyyatının üzləşdiyi problemlərdir. Uzun illər Avropanın iqtisadi lokomotivi hesab edilən Almaniya hazırda sənaye istehsalının zəifləməsi, yüksək enerji xərcləri, beynəlxalq rəqabətin güclənməsi və ixrac bazarlarında çətinliklərlə qarşılaşır. Xüsusilə avtomobil sənayesində baş verən proseslər iqtisadi vəziyyətin həssaslığını nümayiş etdirir. Almaniyanın aparıcı avtomobil istehsalçıları və ehtiyat hissələri təchizatçıları xərcləri azaltmaq, istehsal güclərini yenidən təşkil etmək və işçi qüvvəsini ixtisar etmək məcburiyyətində qalırlar. Bu proses yalnız ayrı-ayrı şirkətlərin maliyyə göstəricilərinə deyil, həm də məşğulluğa, vergi daxilolmalarına və ölkənin sənaye potensialına təsir göstərir.

Büdcə layihəsində 2027-ci il üçün real iqtisadi artımın cəmi 0,9 faiz səviyyəsində proqnozlaşdırılması da hökumətin qarşılaşdığı çətinliklərin miqyasını göstərir.

İQLİM SİYASƏTİ DƏ MÜBAHİSƏLƏRİN MƏRKƏZİNDƏDİR

Büdcə layihəsi ilə bağlı tənqidlər yalnız müdafiə və sosial xərclərlə məhdudlaşmır. İqlim və ekoloji siyasətin maliyyələşdirilməsi də ciddi müzakirələr doğurur. Hökumətin İqlim və Transformasiya Fondundan təxminən 3 milyard avronun dövlət büdcəsinə keçirilməsi planı ekoloji təşkilatların və Yaşıllar Partiyasının etirazına səbəb olub. Tənqidçilər hesab edirlər ki, bu addım iqlim layihələri üçün nəzərdə tutulan vəsaitlərin başqa istiqamətlərə yönəldilməsi riskini yarada bilər. Hökumət nümayəndələri isə vəsaitlərin yenə də istilik sistemlərinin modernləşdirilməsi, enerji keçidi və elektromobilliyin inkişafı kimi istiqamətlərə xidmət edəcəyini bildirirlər. Bundan əlavə, beynəlxalq inkişaf və əməkdaşlıq büdcəsinin 9,47 milyard avroya endirilməsi də tənqidlərə səbəb olub. Bu, əvvəlki illə müqayisədə təxminən 6 faiz azalma deməkdir.

HAKİM KOALİSİYA ÜÇÜN SİYASİ SINAQ

Büdcə ətrafında yaranmış fikir ayrılıqları Almaniyanın hakim koalisiyası üçün də ciddi siyasi sınaqdır. Çünki maliyyə siyasətinin əsas istiqamətləri ilə bağlı fərqli yanaşmalar koalisiya daxilində kompromis əldə edilməsini çətinləşdirir. Mühafizəkar qüvvələr dövlət xərclərinə nəzarətin gücləndirilməsini və qənaət tədbirlərinin həyata keçirilməsini ön plana çəkirlər. Sosial demokratlar isə sosial təminatın qorunmasına, iqtisadi bərabərsizliyin dərinləşməsinin qarşısının alınmasına və dövlət investisiyalarının davam etdirilməsinə daha çox diqqət yetirirlər. Nəticədə büdcə müzakirələri siyasi tərəflərin iqtisadiyyatın gələcəyi ilə bağlı fərqli baxışlarının toqquşduğu platformaya çevrilib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

TİBBİ TƏHSİLDƏ YENİ MƏRHƏLƏ

Qarabağ Universitetində tibb təhsilinin təşkili, eləcə də Sumqayıt Dövlət Universitetinin tibb fakültəsi açmaq təşəbbüsü bu sahədə yeni imkanların yaranmasını gündəmə gətirir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycanda ali tibbi təhsil sistemində yeni mərhələnin başlanması gözlənilir. Uzun illər ərzində ölkədə həkim hazırlığının əsas mərkəzi Azərbaycan Tibb Universiteti olub. Qarabağ Universitetində tibb təhsilinin təşkili, eləcə də Sumqayıt Dövlət Universitetinin tibb fakültəsi açmaq təşəbbüsü bu sahədə yeni imkanların yaranmasını gündəmə gətirir.

Sual yaranır: tibbi təhsil müəssisələrinin sayının artması ölkədə həkim çatışmazlığının aradan qaldırılmasına nə dərəcədə təsir göstərəcək? Yeni universitetlər tibbi kadr hazırlığında rəqabəti və təhsilin keyfiyyətini necə dəyişəcək?

SƏHİYYƏNİN GƏLƏCƏYİ BAXIMINDAN MÜHÜM ADDIM

Milli Məclisin Səhiyyə komitəsinin üzvü Pərvanə Vəliyeva bildirir ki, ölkəmizdə tibb kadrlarının hazırlanmasının genişləndirilməsi səhiyyə sisteminin gələcəyi baxımından mühüm əhəmiyyət daşıyır: "Uzun illər ərzində ölkəmizdə ali tibb təhsilinin əsas yükü Azərbaycan Tibb Universitetinin üzərinə düşüb. İndi isə Qarabağ Universitetində Tibb və Sağlamlıq fakültəsinin fəaliyyətə başlaması, Sumqayıt Dövlət Universitetində də tibb fakültəsinin yaradılması təşəbbüsü yeni mərhələnin başlanğıcıdır. Aparılan təhlillər göstərir ki, ölkəmizdə müəyyən tibbi ixtisaslar və regionlar üzrə həkim çatışmazlığı mövcuddur. Xüsusilə ilkin səhiyyə xidməti, ailə həkimliyi, psixiatriya, ftiziatriya, narkologiya və digər ixtisaslar üzrə kadr təminatının gücləndirilməsinə ehtiyac var. Bu problemin həlli yollarından biri tibb təhsilinin coğrafiyasını genişləndirmək, daha çox gəncə ali tibb təhsili almaq imkanı yaratmaqdır. Sumqayıt və Xankəndi kimi şəhərlərdə tibb fakültələrinin yaradılması regionlarda təhsil imkanlarının artırılması ilə yanaşı, gələcəkdə həmin ərazilərin yerli tibbi kadrlarla təmin olunmasına da töhfə verə bilər".

Deputatın sözlərinə görə, bu prosesdə yüksəkixtisaslı müəllim və klinik mütəxəssislərin təminatı, tələbələrin keyfiyyətli praktiki hazırlığı xüsusi əhəmiyyət daşıyır: "Bunun üçün təcrübəli həkimlərin tədrisə cəlb edilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi vacibdir".

P.Vəliyeva qeyd edir ki, yeni fakültələrin məzunları əmək bazarına ən tez altı ildən sonra daxil olacaqlar. Buna görə də mövcud həkim çatışmazlığının aradan qaldırılması üçün yeni kadrların hazırlanması ilə yanaşı, hazırda çalışan və təqaüddə olan təcrübəli mütəxəssislərin potensialından da səmərəli istifadə edilməlidir: "Əsas məqsəd sadəcə yeni tibb fakültələri açmaq deyil, keyfiyyətli həkimlər yetişdirmək və ölkə üzrə tibbi xidmətlərin əlçatanlığını artırmaqdır".

"O QƏDƏR DƏ ASAN İŞ DEYİL..."

Professor Adil Qeybulla isə məsələyə bir qədər başqa prizmadan yanaşır: "Tibb fakültəsini açmağı elan etmək çox asandır, ancaq onun infrastrukturunu yaratmaq, müasir standartlara cavab verən tibb kadrları hazırlamaq elə də asan məsələ deyil. Tibb Universiteti Azərbaycan reallığı üçün qocaman təhsil müəssisəsidir. Keçən əsrin əvvəllərində formalaşan bir ali məktəbdir və kifayət qədər genişlənmiş tibbi bazalara malikdir. Bununla belə, bu təhsil müəssisəsinin özünün də problemləri var. Məsələn, onun tibbi bazalarına sığortalı xəstələr gəlmir, rezidentləri hazırlamaq çətindir və s. Bütün bunlara baxmayaraq, Tibb Universiteti bu gün Azərbaycanda tibb kadrları hazırlamağa qadir olan yeganə tibb müəssisəsidir. Açığı, qalan heç bir yerdə belə bir bazanı görmürəm".

Professor bildirir ki, İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı da tibb kadrları hazırlayır: "Onlar da Tibb Universitetinin bazalarından istifadə edirlər. Amma Qarabağ Universitetində, Sumqayıtda və s. yerlərdə tibb kadrları hazırlamaq üçün lazımi infrastruktur əvvəlcədən qurulmalıdır. Bütün bunları həyata keçirmək o qədər də asan iş deyil".





"Xüsusi Dövlət Proqramına ehtiyac var"

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli hesab edir ki, ali tibb təhsilinin coğrafiyasının genişləndirilməsi ölkədə həkim çatışmazlığının aradan qaldırılmasına töhfə verə bilər: "Türkiyədə ölkənin demək olar ki, hər bir əyalətində universitetlərin nəzdində tibb fakültələri fəaliyyət göstərir. Bu baxımdan, Azərbaycanda da tibb təhsilinin müxtəlif universitetlərdə təşkili və regionlara yayılması əhəmiyyətlidir".

İ.Hüseynli hesab edir ki, yeni fakültələrin yaradılması ilə bağlı əsas məsələlərdən biri yüksəkixtisaslı müəllim-professor heyətinin formalaşdırılmasıdır: "Ölkənin əsas müəllim-professor heyəti Azərbaycan Tibb Universitetində cəmləşib. Nəzərə almalıyıq ki, tibb təhsilində yalnız ixtisas fənləri deyil, anatomiya, biokimya, fiziologiya kimi fundamental elmlər də tədris olunur. Yeni universitetlərdə bu fənləri tədris edəcək, eyni zamanda klinik təcrübəyə malik kifayət qədər mütəxəssisimiz varmı? Bu, ciddi sualdır".

Ekspert Qarabağ Universitetində yaradılan klinikanı mühüm üstünlük hesab edir: "Qarabağ Universitetinin üstünlüyü ondan ibarətdir ki, burada kifayət qədər çarpayı fondu və təcili tibbi yardım imkanları olan klinika yaradılıb. Əsas hədəf həmin klinikaya yüksəkixtisaslı kadrların cəlb edilməsidir". Ekspertin fikrincə, yeni tibb fakültələrinin uğurlu fəaliyyəti üçün güclü elmi və texniki baza ilə yanaşı, rezidentura təhsilinin təkmilləşdirilməsi, tələbələrin regionlarda işləməsini stimullaşdıran sosial imkanların yaradılması da vacibdir: "Regionlardakı problemlərin aradan qaldırılması üçün də çalışmaq lazımdır. Bunun üçün dövlətin xüsusi proqramı olmalıdır". Ekspert hesab edir ki, ATU, Naxçıvan və Qarabağ universitetlərində tibb təhsili alan gənclər hərbi xidmətə çağırılmamalıdır: "Bu yanaşma həm ölkənin tibbi kadr potensialının qorunmasına, həm də xaricdə tibb təhsili alan gənclərin Azərbaycana qayıtmasının təşviqinə xidmət edə bilər".

500 MƏKTƏB YENİ MEXANİZMLƏ MALİYYƏLƏŞİR



Həyata keçirilən proqramlar nəticəsində 3600-dən çox məktəb ya tikilib, ya əsaslı təmir edilib. Görülən işlər nəticəsində 1,3 milyondan çox şagirdin təhsil və təlim şəraiti yaxşılaşdırılıb.

Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunub. Müzakirələr zamanı təhsil məsələlərinə xüsusi diqqət ayrılıb.

İNFRASTRUKTURU YARARSIZ OLAN MƏKTƏBLƏRİN SAYI AÇIQLANDI

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə bildirib ki, Azərbaycanda 2030-cu ilə qədər ümumi təhsildə infrastruktur problemləri qalmayacaq. O qeyd edib ki, Milli Məclisdə dövlət qurumları ilə ən çox müzakirə olunan məsələlərdən biri məktəb tikintisi və infrastrukturudur: "Son illərdə Prezidentin birbaşa diqqət və qayğısı ilə həyata keçirilən proqramlar nəticəsində 3600-dən çox məktəb ya tikilib, ya əsaslı təmir edilib. Görülən bu işlər nəticəsində 1,3 milyondan çox şagirdimizin təhsil və təlim şəraiti yaxşılaşdırılıb. Eyni zamanda, qeyd etmək istərdim ki, mövcud infrastrukturu yararsız olan məktəblərin sayı 900-dən 400-ə qədər azaldılıb. Planımız var, 2030-cu ilə qədər bizim ümumi təhsildə infrastruktur problemləri yəqin ki, qalmayacaq".

Nazir müavini bildirib ki, 2026-2027-ci tədris ilində 53 təhsil müəssisəsində tikinti-quraşdırma işləri aparılacaq və bu çərçivədə 11 müəssisə artıq istifadəyə verilib.

GƏLƏN İL 100 MƏKTƏB YENİ MALİYYƏLƏŞMƏ SİSTEMİNƏ KEÇƏCƏK

Kənan Kərimzadə bildirib ki, 2027-ci ildə əlavə olaraq 100 məktəbin adambaşı maliyyələşmə mexanizminə keçidi üçün 223,8 milyon manat vəsait nəzərdə tutulub. Onun sözlərinə görə, hazırda 500 məktəbdə bu mexanizm tətbiq olunur: "Valideyn-dövlət-özəl tərəfdaşlığı çərçivəsində artıq 8 min uşaq məktəbəqədər təhsilə cəlb edilib. Gələn il isə özəl sektorun imkanlarından istifadə etməklə bu göstəricinin 12 min uşağa çatdırılması planlaşdırılır. Bu mexanizm çərçivəsində dövlət hər bir uşağın özəl məktəbəqədər təhsil müəssisəsindəki təhsil haqqının 70 faizini ödəyir. Növbəti il bu təşəbbüsün həyata keçirilməsi üçün 37,5 milyon manat vəsait ayrılması nəzərdə tutulub".

K.Kərimzadə həmçinin bildirib ki, 2030-cu ilədək layihənin 30 min uşağı əhatə etməsi planlaşdırılır: "İslahat nəticəsində ayrılan vəsaitlərin əhəmiyyətli hissəsi vergi və sosial sığorta ödənişləri şəklində yenidən dövlət büdcəsinə və müvafiq fondlara qayıdacaq. Əgər bu islahatı tam həyata keçirsək, 18 milyon manat Dövlət Sosial Müdafiə Fonduna, 12 milyon manat isə vergi gəlirləri şəklində Dövlət Vergi Xidmətinə daxil olacaq".

MÜƏLLİMLƏRİN ORTA AYLIQ ƏMƏKHAQQI 770 MANATDIR

Kənan Kərimzadə qeyd edib ki, Azərbaycanda sertifikatlaşdırma prosesinin birinci mərhələsi yekunlaşıb, prosesdə iştirak edən 104 min müəllimdən 91 400 nəfərinin əməkhaqqına əlavələr edilib. O bildirib ki, sertifikatlaşdırmada iştirak edən müəllimlərin 60 min nəfəri 30 baldan 51 bala qədər nəticə göstərərək əməkhaqqına 10 faiz əlavə qazanıb:

"Təxminən 31 min müəllim isə 35 faizlik əməkhaqqı əlavəsi əldə edib. Sertifikatlaşdırmada iştirak etməyən və ya prosesə cəlb olunmayan müəllimlərin bu il orta aylıq əməkhaqqı 770 manat təşkil edir. Sertifikatlaşdırmadan uğurla keçərək 10 faiz əlavə alan müəllimlərin orta aylıq əməkhaqqı vergilər daxil olmaqla (gross) 1 010 manat, 51 baldan yuxarı nəticə göstərən müəllimlərin isə 1 320 manatdır. Bu islahatın həyata keçirilməsi üçün növbəti il dövlət büdcəsindən 286.4 milyon manat vəsait ayrılması nəzərdə tutulub. 2014-cü illə müqayisədə müəllimlərin orta aylıq əməkhaqqı üç dəfədən çox artıb. 2026-cı ilin sentyabrına olan məlumata əsasən, Azərbaycanda müəllimlərin orta aylıq əməkhaqqı vergilər daxil olmaqla (gross) 1 030 manat təşkil edir".

"HESABATLAR TƏQDİM EDİLMƏLİDİR"

Deputat Elnarə Akimova bildirib ki, dərsliklərin hazırlanmasına və nəşrinə ayrılan büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı ətraflı və şəffaf hesabatlar təqdim edilməlidir. Onun fikrincə, bu məsələ ilə bağlı ekspertiza komissiyasının yaradılmasına ehtiyac var: "Dərsliklərin qiymətləndirilməsi prosesinə ictimaiyyətin, tanınmış alimlərin, mütəxəssislərin, ziyalıların real təsiri təmin edilməlidir ki, məzmun keyfiyyətinə nəzarət güclənsin. Bizdən gözlənilənlər büdcəni rəqəmlər olaraq təsdiqləmək deyil, dövlətin pulunun hara və necə xərcləndiyinə, xüsusilə, uşaqların təhsil keyfiyyətinə və milli uğuruna necə xidmət etdiyinə nəzarətin təşkilidir".



Türkiyəyə investisiyalar 20 milyarda çatacaq

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Türkiyədə yerləşən STAR neft emalı zavodunda (NEZ) aviasiya kerosini istehsalı üçün yeni qurğunun inşasına təxminən 120 milyon ABŞ dolları (təqribən 6 milyard Türkiyə lirəsi) yönəltməyi planlaşdırır. "Report" xəbər verir ki, bu barədə Türkiyə mediası "SOCAR Türkiye" şirkətinə istinadən məlumat yayıb.

Bildirilib ki, STAR NEZ aviasiya yanacağı istehsalı üçün yeni qurğunun layihələndirilməsi, satınalınması və inşası mərhələsinə keçib. "Təxminən 6 milyard lirə məbləğindəki bu kapital qoyuluşları çərçivəsində biz aviasiya yanacağı istehsalını yeni "Jet Fuel" ("Kero-Merox") qurğusuna keçirəcəyik və hər il təqribən 600 min ton həcmində əlavə dizel yanacağı istehsalı güclərini təmin edəcəyik. Bu, bazar vəziyyətini nəzərə almaqla aviasiya kerosini və dizel istehsalını daha çevik idarə etməyimizə imkan verəcək", - "SOCAR Türkiye"nin neft emalı və neft-kimya biznes bölməsinin rəhbəri və Türkiyənin "Petkim Petrokimya Holding" şirkətinin baş direktoru Kənan Mirzəyev bildirib.

Qeyd olunub ki, layihənin icrası zavodun əməliyyat çevikliyini və enerji səmərəliliyini artıracaq, həmçinin Türkiyənin idxal olunan dizel yanacağı tədarükündən asılılığını azaldacaq. STAR NEZ-də fəaliyyət göstərən KHT ("Kerosene Hydrotreater") qurğusu yeni "Jet Fuel" ("Kero-Merox") qurğusu işə salındıqdan sonra dizel istehsalına yenidən istiqamətləndiriləcək, eyni zamanda zərurət yarandıqda KHT qurğusu aviasiya kerosini istehsalını bərpa etmək imkanını qoruyub saxlayacaq.

"Bu layihə üzrə beynəlxalq şirkətlər konsorsiumu ilə EPC müqaviləsi bağlanıb. Layihə-axtarış, satınalma və tikinti-quraşdırma işlərinə yaxın günlərdə başlanacaq, yeni "Jet Fuel" ("Kero-Merox") qurğusunun isə 2029-cu ilin birinci rübünə işə salınması nəzərdə tutulur. Bu layihə SOCAR-ın Türkiyəyə yatırdığı ümumi investisiya həcmini 20 milyard dollara çatdıracaq", - K.Mirzəyev vurğulayıb.

O bildirib ki, 2018-ci ildə istismara verilmiş STAR NEZ-in emal gücü ilkin 10 milyon tondan ildə 13 milyon tona qədər artıb: "Nəticədə STAR Türkiyənin ən böyük vahid neft emalı zavoduna çevrilib".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az


Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1512
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

İKT SEKTORUNDA REKORD ARTIM



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanın İKT sektorunda mövcud artım tempini qorumaq və regional rəqabət qabiliyyətini gücləndirmək mümkündür. Lakin əsas uğur meyarı yalnız sektorun həcminin artması deyil, yaradılan texnoloji məhsulların, xidmət ixracının, innovativ şirkətlərin və yüksəkixtisaslı iş yerlərinin sayının artması olmalıdır.



Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunda 2 milyard 57,4 milyon manatlıq məhsul istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 11,1 faiz çoxdur. Təkcə sentyabr ayında isə sektorda 282,3 milyon manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 30,6 faiz artım deməkdir.

Ümumi Daxili Məhsulda payı 2 faizə çatan İKT sektoru ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından perspektivli istiqamətlərdən biri kimi çıxış edir. Son illərdə rəqəmsallaşma, texnoloji infrastrukturun inkişafı və İT sahəsinə investisiyaların artırılması istiqamətində atılan addımlar fonunda sektorda qeydə alınan artım xüsusi maraq doğurur.

Maraqlıdır, artım tempi İKT sahəsində son vaxtlar atılan addımların səmərə verdiyinin göstəricisi kimi qəbul edilə bilərmi? Ümumiyyətlə, Azərbaycan bu templə region ölkələri ilə arasındakı İKT fərqini azalda biləcəkmi?

"DİQQƏT İNSAN KAPİTALININ GÜCLƏNDİRİLMƏSİNƏ YÖNƏLMƏLİDİR"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyasının (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov deyir ki, cari ilin yanvar-sentyabr aylarında İKT sektorunda qeydə alınan artım son iki ildə bu sahədə atılan çoxşaxəli addımların real nəticələr verdiyini açıq şəkildə nümayiş etdirir. Onun sözlərinə görə, dövlət rəhbərliyi səviyyəsində İKT sektoruna göstərilən diqqət və aidiyyəti qurumların intensiv fəaliyyəti rəqəmsal transformasiya prosesinə güclü təkan verərək artım dinamikasını kəskin sürətləndirib: "İnfrastrukturun yenilənməsi, genişzolaqlı internet şəbəkəsinin əhatə dairəsinin genişlənməsi, e-dövlət xidmətlərinin inteqrasiyası və İT ekosisteminin stimullaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Bu addımlar rəqəmsal iqtisadiyyatın fiziki həcmini genişləndirməklə yanaşı, sektorda xidmət dövriyyəsinin də indiyədək qeydə alınan ən yüksək səviyyəyə çatmasına zəmin yaradıb. Əldə olunmuş artım tempinin uzunmüddətli və davamlı olmasını təmin etmək üçün prosesin növbəti mərhələsində iqtisadiyyatın strukturunda keyfiyyət dəyişikliyinə nail olmaq vacibdir. Baza infrastrukturu qurulduqdan sonra diqqət insan kapitalının gücləndirilməsinə, süni intellekt və kibertəhlükəsizlik sahələrində yerli kadrların hazırlanmasına, proqram təminatı istehsalına və özəl sektorla elmi-tədqiqat layihələrinin genişləndirilməsinə yönəldilməlidir".


Elvin Abbasov

Foto: Sabir Məmmədov/Global Photostock

Regional rəqabətdəki boşluqlar

Region ölkələri ilə rəqabətdə mövcud olan bəzi boşluqlara gəldikdə isə, mütəxəssis bildirir ki, xüsusən İT xidmətlərinin ixracı, vençur kapitalı və startap ekosisteminin inkişaf səviyyəsində fərqlər var: "Bu fərqi aradan qaldırmaq üçün dövlət dəstəyi ilə qlobal İT nəhənglərinin ölkəyə cəlb edilməsi, vergi stimullarının daha da çevikləşdirilməsi və yerli şirkətlərin xarici bazarlara çıxışının dəstəklənməsi həlledici addımlar olacaq".

"YALNIZ İNFRASTRUKTURUN İNKİŞAFI KİFAYƏT DEYİL"

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) İnnovasiya Komitəsinin sədri Mircəlal Bağırov deyir ki, Azərbaycanda İKT sektorunda müşahidə olunan artım müsbət tendensiyadır və son illərdə rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini göstərir: "Xüsusilə proqram təminatının işlənməsi və məsləhət xidmətlərində 32,2 faizlik artım diqqətəlayiqdir. Lakin artım tempinin davamlı olması üçün yalnız infrastrukturun inkişafı kifayət deyil. Əsas diqqət yüksəkixtisaslı kadrların hazırlanmasına, innovasiyaların təşviqinə, yerli texnologiya şirkətlərinin inkişafına və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə yönəldilməlidir. Azərbaycanın əsas hədəfi texnologiyaları istehlak edən ölkədən texnoloji məhsul və xidmətlər yaradan, onları beynəlxalq bazarlara ixrac edən ölkəyə çevrilmək olmalıdır. Bunun üçün vençur maliyyələşməsi, universitet-özəl sektor əməkdaşlığı və innovativ bizneslərə dövlət dəstəyi daha da gücləndirilməlidir".

"Texnologiya bazarında daha böyük pay əldə etmək üçün ciddi potensial var"

Mütəxəssis M. Bağırov bildirir ki, Azərbaycanın bu sahədəki inkişafını qiymətləndirərkən telekommunikasiya infrastrukturu, proqram təminatı sənayesi, texnoloji xidmətlərin ixracı və insan kapitalı ayrı-ayrılıqda nəzərdən keçirilməlidir: "Beynəlxalq Telekommunikasiya İttifaqının 2025-ci il İKT İnkişafı İndeksində Azərbaycan 85,9 bal, Gürcüstan 89,5 bal, Qazaxıstan isə 90,5 bal əldə edib. BMT-nin 2024-cü il Elektron Hökumətin İnkişafı İndeksində Azərbaycanın mövqeyi 74-cü, Gürcüstanın 69-cu, Qazaxıstanın isə 24-cü olub. Daha vacib fərqlərdən biri texnoloji xidmətlərin ixracında özünü göstərir. Dünya Bankının 2025-ci il məlumatlarına əsasən, İKT xidmətlərinin ixracı Azərbaycanda təxminən 130 milyon ABŞ dolları, Gürcüstanda 1,29 milyard dollar, Qazaxıstanda isə 1,36 milyard dollar təşkil edib. Bu rəqəmlər Azərbaycanın beynəlxalq texnologiya bazarında daha böyük pay əldə etməsi üçün ciddi potensialın mövcud olduğunu göstərir. Bu fərqi azaltmaq üçün ilk növbədə yerli İT şirkətlərinin beynəlxalq bazarlara çıxışı stimullaşdırılmalı, startapların maliyyələşmə imkanları genişləndirilməli, süni intellekt, kibertəhlükəsizlik, proqram təminatı və bulud texnologiyaları üzrə ixtisaslaşma gücləndirilməlidir. Eyni zamanda, dövlət və özəl sektorun rəqəmsallaşma layihələrində yerli texnologiya şirkətlərinin iştirakı artırılmalıdır. Beləliklə, ölkə daxilində formalaşan tələbat yerli texnoloji biznesin inkişafına və sonradan ixrac potensialının yaranmasına xidmət edə bilər".

Ekspertin fikrincə, Azərbaycanın İKT sektorunda mövcud artım tempini qorumaq və regional rəqabət qabiliyyətini gücləndirmək mümkündür. Lakin əsas uğur meyarı yalnız sektorun həcminin artması deyil, yaradılan texnoloji məhsulların, xidmət ixracının, innovativ şirkətlərin və yüksəkixtisaslı iş yerlərinin sayının artması olmalıdır.


Mircəlal Bağırov

KİÇİK SAHƏDƏN BÖYÜK GƏLİR

Aqrar sahədə növbəti hədəflərdən biri giləmeyvə istehsalının artırılması olacaq. Ekspertlər ilk növbədə bütöv təchizat zəncirinin formalaş-dırılmasını zəruri hesab edirlər.

SEVİNC ABBASOVA

Azərbaycanda giləmeyvə istehsalının genişləndirilməsi qarşıdakı dövr üçün əsas aqrar hədəflərdən biri olacaq. Bu istiqamətdə məqsəd yalnız istehsal həcmini artırmaq deyil, həm də məhsuldarlığı yüksəltmək, emal imkanlarını genişləndirmək və yerli giləmeyvələrin xarici bazarlara çıxışını artırmaqdır. Göygöldə keçirilən "III Moruq festivalı"nda kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli bildirib ki, ölkədə intensiv bağlar istiqamətində genişlənmə müşahidə olunur. Növbəti hədəflərdən biri isə giləmeyvə istehsalının artırılması olacaq.

Bəs, görəsən, bu hədəfə çatmaq üçün hansı addımlar atılmalıdır?

Mütəxəssislərin fikrincə, giləmeyvəçiliyin inkişafı üçün fermerlərin keyfiyyətli əkin materialı ilə təmin edilməsi, müasir becərmə texnologiyalarının tətbiqi, su təminatının yaxşılaşdırılması və məhsulun saxlanması üçün infrastrukturun genişləndirilməsi vacibdir. Xüsusilə giləmeyvələrin tez xarab olan məhsullar olması soyuducu anbarların və düzgün logistika sisteminin əhəmiyyətini artırır. Digər tərəfdən, istehsalın artması ilə yanaşı emal imkanlarının genişləndirilməsi də mühüm əhəmiyyət daşıyır. Moruq və digər giləmeyvələrin dondurulmuş, qurudulmuş, şirə və digər emal olunmuş məhsullar formasında bazara çıxarılması əlavə dəyərin yüksəldilməsinə imkan verə bilər.

İSTEHSALIN ARTIRILMASI ÜÇÜN POTENSİAL VAR

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Mircavid Həsənov bildirib ki, giləmeyvə istehsalının genişləndirilməsi üçün kifayət qədər potensial mövcuddur. Onun sözlərinə görə, xüsusilə moruq həm daxili, həm də xarici bazarlarda yaxşı qiymətə satılan məhsullardan biridir. "Düzdür, məhsulun rəf ömrü çox qısadır və onu digər meyvələr kimi uzun müddət saxlamaq çətindir. Buna baxmayaraq, moruq həm daxili, həm də xarici bazarda qiymət baxımından əlverişli məhsuldur", - ekspert qeyd edib. Onun fikrincə, son illər xaricdən daha məhsuldar yeni sortların gətirilməsi fermerlərin bu sahəyə marağını artırıb. Bununla belə, bu istehsal istiqaməti Azərbaycanda hələ geniş yayılmayıb və fermerlər üçün ənənəvi sahələrdən biri hesab olunmur.



FERMERLƏRİ QORXUDAN SƏBƏB

Ekspert hesab edir ki, fermerlərin giləmeyvə istehsalına daha çox maraq göstərməsi üçün əsas məsələlərdən biri məhsulun tədarükü və saxlanması ilə bağlı problemlərin həllidir. "Əgər tədarükçülər məhsulu fermerdən vaxtında və yaxşı qiymətə alsalar, soyuducu anbarlar kifayət qədər olsa, fermerin bu sahəyə marağı daha da artar. Moruq uzun müddət saxlanıla bilən məhsul deyil. Məhsul qısa müddətdə bazara çıxarılmalı və ya ixrac edilməlidir", - M.Həsənov vurğulayıb. O bildirib ki, regionlar üzrə də vəziyyət fərqlidir. Qərb bölgəsində giləmeyvə istehsalı daha geniş yayılsa da, burada soyuducu anbarların sayı nisbətən azdır. Şimal bölgəsində isə soyuducu anbar imkanları daha yaxşı olsa da, giləmeyvə istehsalı hələ geniş yayılmayıb.

M.Həsənovun sözlərinə görə, fermerlərlə tədarükçü və ixrac şirkətləri arasında əlaqələrin gücləndirilməsi sahənin inkişafına ciddi təkan verə bilər. Fermer məhsulunun əvvəlcədən alıcısının və satış kanalının olduğunu bildikdə istehsalı artırmaqda daha maraqlı olur.

BU SAHƏ MƏŞĞULLUĞUN ARTIRILMASI BAXIMINDAN DA ƏHƏMİYYƏTLİDİR

Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli hesab edir ki, Azərbaycanın giləmeyvəçiliyi, xüsusilə moruq istehsalını prioritet istiqamətlərdən birinə çevirmək qərarı kifayət qədər əsaslıdır. Onun sözlərinə görə, ölkənin müxtəlif torpaq-iqlim şəraiti moruq, qarağat, çiyələk, böyürtkən və digər giləmeyvələrin yetişdirilməsi üçün əlverişli imkanlar yaradır.

Göygöl, Qəbələ, Şəki, Qax və Zaqatala kimi rayonların mikroiqlim xüsusiyyətləri giləmeyvəçilik üçün xüsusilə əlverişlidir.

İqtisadçının fikrincə, bu sahənin əsas üstünlüklərindən biri nisbətən kiçik ərazidən yüksək gəlir əldə etmək imkanının olmasıdır. Eyni zamanda, məhsulun emal edilməsi əlavə dəyərin formalaşdırılmasına şərait yaradır. "Cem, mürəbbə, şirə və dondurulmuş məhsul istehsalı ilə yanaşı, xarici bazarlarda təzə və dondurulmuş giləmeyvələrə tələbat da ixrac üçün imkan yaradır", - ekspert qeyd edib.

A.Nəsirli hesab edir ki, sahənin inkişafı məşğulluğun artırılması baxımından da əhəmiyyətlidir.

GİLƏMEYVƏ İSTEHSALI PROSESİNDƏ TƏCHİZAT ZƏNCİRİ TAM FORMALAŞMAYIB

Bununla belə, iqtisadçı Azərbaycanın mövcud potensialından hələ tam istifadə etmədiyini düşünür. Onun sözlərinə görə, istehsalda artım müşahidə olunsa da, giləmeyvə əkinlərinin ümumi meyvəçilikdə payı hələ məhduddur.



Mircavid Həsənov

A.Nəsirli əsas problemlər sırasında müasir sortların və intensiv aqrotexnikanın kifayət qədər geniş yayılmamasını, suvarma imkanlarının məhdudluğunu, giləmeyvələrin tez xarab olması səbəbindən soyuq zəncir və logistika infrastrukturunun çatışmazlığını göstərib. O, həmçinin emal müəssisələrinin imkanlarının genişləndirilməsinə, beynəlxalq sertifikatlaşdırmanın fermerlər üçün daha əlçatan olmasına və kiçik istehsalçıların kooperativlərdə birləşməsinə ehtiyac olduğunu vurğulayıb.

Ekspertin fikrincə, dövlət dəstəyi yalnız bağların salınmasına deyil, bütün istehsal zəncirinə yönəlməlidir. İntensiv bağların və məhsuldar sortların dəstəklənməsi ilə yanaşı, damcı suvarma sistemlərinə, soyuducu anbarlara, logistika və emal müəssisələrinə investisiyalar artırılmalıdır. "Ən vacib məsələ məhsul istehsal etdikdən sonra onun necə və kimə satılacağıdır. Əgər fermer yalnız məhsul istehsal edir, lakin soyuducu anbarı, emal müəssisəsi və ixrac kanalı yoxdursa, yüksək məhsuldarlıq belə gəlirliliyə çevrilməyə bilər", - A.Nəsirli bildirib.

Ekspert hesab edir ki, giləmeyvəçilik üzrə siyasət yalnız "bağ salaq" prinsipi ilə deyil, "istehsal-saxlama-emal-sertifikatlaşdırma-ixrac" zəncirinin bütöv şəkildə qurulması prinsipi ilə aparılmalıdır.



Akif Nəsirli

BAKI AVTOBUSLARINDA SƏRNİŞİN BUMU

Bakıda avtobuslarla sərnişindaşıma oktyabr ayında ötən ilin eyni dövrü ilə müqayisədə 15 faizdən çox artıb. Artımın səbəbləri sırasında ictimai nəqliyyatda aparılan islahatlar, metroda yaranmış məhdudiyyətlər və paytaxtda gündəlik hərəkətliliyin yüksəlməsi göstərilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda avtobuslarla sərnişindaşımanın rekord həddə çatması paytaxtın ictimai nəqliyyat sistemində baş verən dəyişiklikləri yenidən gündəmə gətirib. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin məlumatına görə, 2026-cı ilin oktyabr ayında müntəzəm marşrut avtobusları ilə 53 milyon 921 min 482 sərnişin daşınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 15 faizdən çox artım deməkdir. Cari ilin ilk doqquz ayında isə avtobuslardan 386 milyon 227 min 196 sərnişin istifadə edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz çoxdur. Bəs sərnişin sayındakı bu kəskin artımın səbəbi nədir? Son illərdə ictimai nəqliyyatda aparılan islahatlar, yoxsa metroda yaranmış hərəkət məhdudiyyətləri?

"ARTIM XİDMƏT KEYFİYYƏTİNİN GÖSTƏRİCİSİ DEYİL"

Nəqliyyat eksperti Adil Nəbiyevin sözlərinə görə, sərnişindaşımanın artımını yalnız metroda yaranan hərəkət məhdudiyyətləri və ya həyata keçirilən nəqliyyat islahatları ilə əlaqələndirmək düzgün olmaz. Burada bir neçə amil eyni vaxtda təsir göstərə bilər: "Son illərdə Bakıda avtobus parkının yenilənməsi, yeni nəqliyyat vasitələrinin istismara verilməsi, marşrut xətlərinin optimallaşdırılması, avtobus zolaqlarının yaradılması və nağdsız ödəniş sisteminin genişləndirilməsi ictimai nəqliyyatın imkanlarını artırıb. Bununla yanaşı, metroda hərəkətin məhdudlaşdırıldığı istiqamətlərdə sərnişinlərin alternativ nəqliyyat vasitəsi kimi avtobuslara üz tutması da sərnişin axınına təsir göstərmiş ola bilər. Diqqətçəkən məqam odur ki, 2026-cı ilin ilk doqquz ayında avtobuslarla sərnişindaşıma ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artdığı halda, oktyabr ayında bu göstərici 15 faizi ötüb. Artım tempindəki fərq oktyabrda əlavə amillərin də təsir göstərdiyini ehtimal etməyə əsas verir. Metroda yaranmış məhdudiyyətlərlə yanaşı, tədris ilinin başlaması, məktəb və universitetlərdə dərslərin davam etməsi, paytaxtda gündəlik hərəkətliliyin artması da ictimai nəqliyyata tələbatı yüksəldə bilər".

A.Nəbiyevin fikrincə, metrodan istifadə edə bilmədiyi üçün avtobusa üz tutan sərnişinlə xidmətin keyfiyyətini daha yüksək hesab etdiyi üçün avtobusu könüllü seçən sərnişin arasında fərq var: "Birinci halda sərnişin alternativ nəqliyyat vasitəsinə yönəlir, ikinci halda isə ictimai nəqliyyatın cəlbediciliyi artır. Buna görə də metroda yaranmış məhdudiyyətlər nəticəsində avtobuslardan istifadənin çoxalmasını avtomatik olaraq nəqliyyat islahatlarının uğuru kimi qiymətləndirmək doğru olmaz. Bununla belə, son illərdə həyata keçirilən dəyişikliklər ictimai nəqliyyatın cəlbediciliyini artırmaq potensialına malikdir. Müasir avtobusların komfortu, kondisioner və isitmə sistemləri, texniki vəziyyəti, sərnişin tutumu və əlçatanlıq imkanları bu baxımdan mühüm rol oynayır. Lakin avtobusların sayının artması xidmət keyfiyyətinin avtomatik yüksəlməsi demək deyil".

"İCTİMAİ NƏQLİYYAT ŞƏXSİ AVTOMOBİLLƏRƏ ALTERNATİV OLMALIDIR"

Ekspert bildirdi ki, sərnişin artımının şəxsi avtomobillərdən istifadəyə təsiri də ayrıca qiymətləndirilməlidir: "Avtobuslardan istifadə edənlərin sayının çoxalması avtomatik olaraq yollardakı avtomobillərin sayının azalması demək deyil. Əgər sərnişinlər əvvəllər metrodan istifadə edirdilərsə, onların avtobusa keçməsi avtomobil sıxlığına təsir göstərməyə bilər. Ancaq şəxsi avtomobilindən imtina edərək ictimai nəqliyyata üstünlük verənlərin sayı artırsa, bu, tıxacların, parklanma tələbatının və yanacaq sərfiyyatının azalmasına kömək edə bilər. Bunun üçün avtobus sərnişinə şəxsi avtomobillə müqayisədə daha qısa səfər müddəti, rahatlıq və etibarlı hərəkət qrafiki kimi real üstünlüklər təqdim etməlidir".

A.Nəbiyev qeyd etdi ki, metroda hərəkət tam bərpa olunduqdan sonra avtobus marşrutlarında sərnişin axınının dəyişməsi də mümkündür: "Xüsusilə metroya paralel fəaliyyət göstərən və məhdudiyyətlər dövründə əlavə sərnişin yükü qəbul edən marşrutlarda sərnişin sayının azalacağı istisna edilmir. Lakin bu, bütün avtobus şəbəkəsi üzrə sərnişindaşımanın azalacağı anlamına gəlmir. Metro və avtobus rəqib deyil, vahid ictimai nəqliyyat sisteminin bir-birini tamamlayan hissələridir".



"YENİ AVTOBUSLAR İCTİMAİ NƏQLİYYATIN CƏLBEDİCİLİYİNİ ARTIRIR"

Nəqliyyat eksperti Eldəniz Cəfərov isə düşünür ki, vətəndaşların avtobuslara daha çox üstünlük verməsinin əsas səbəblərindən biri ictimai nəqliyyatda aparılan islahatlardır: "Hazırda Bakı şəhərində avtobusların sayı 2 400-ü ötüb. Demək olar ki, hər il 300-ə yaxın yeni avtobus marşrut xətlərinə buraxılır. Köhnə nəqliyyat vasitələrinin yeniləri ilə əvəzlənməsi sərnişinlər üçün daha rahat və təhlükəsiz şərait yaradıb. Əvvəllər avtobuslarda komfort, isitmə və soyutma sistemləri ilə bağlı problemlər, eləcə də əlilliyi olan şəxslərin daşınmasında çətinliklər mövcud idi. Yeni avtobuslar isə bu baxımdan daha əlverişli imkanlar təqdim etməklə yanaşı, ekoloji cəhətdən də üstünlüklərə malikdir. Uşaqların, yaşlıların və əlilliyi olan şəxslərin daşınması üçün yaradılan şərait də xidmətin əlçatanlığını artırır".

Ekspertin sözlərinə görə, avtobus parkının genişlənməsi hərəkət intervallarının qısalmasına, sərnişinlərin dayanacaqlarda gözləmə müddətinin azalmasına imkan verir: "Avtobus zolaqlarının düzgün və maneəsiz fəaliyyəti isə ictimai nəqliyyatın daha sürətli hərəkətini təmin edərək sərnişinlərə fərdi avtomobillə müqayisədə vaxta qənaət etmək imkanı yaradır. Bu amillər avtobusların cəlbediciliyini artırmaqla yanaşı, şəxsi avtomobildən ictimai nəqliyyata keçidi də stimullaşdıra bilər. Belə bir keçid baş verərsə, yollardakı nəqliyyat sıxlığının, parklanma tələbatının və yanacaq sərfiyyatının azalmasına da müsbət təsir göstərər".

E.Cəfərov bildirdi ki, metro əvvəlki iş rejiminə qayıtdıqdan sonra məhdudiyyətlər səbəbindən avtobuslardan istifadə edən sərnişinlərin bir hissəsi yenidən metroya yönələ bilər.


Eldəniz Cəfərov

VİTRİNDƏKİ BAHALI KOMFORT



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Hazır doğranmış, qabığı soyulmuş və qablaşdırılmış meyvə-tərəvəz çeşidləri rəflərdə getdikcə daha çox yer tutur. Lakin bu meyvələri alarkən diqqət edilməli olan çox ciddi məqamlar da var.

Müasir həyat tərzi gündəlik alış-veriş vərdişlərimizi də dəyişir. Vaxta qənaət və rahatlıq gündəlik seçimlərimizdə olduğu kimi, ərzaq alış-verişində də ön plana çıxır. Bunun nəticəsidir ki, hazır doğranmış, qabığı soyulmuş və qablaşdırılmış meyvə-tərəvəz çeşidləri rəflərdə getdikcə daha çox yer tutur.

Yumaq, soymaq, doğramaq və süfrəyə hazırlamaq üçün əlavə vaxt sərf etməmək xüsusilə işləyən insanlar üçün cəlbedici seçimdir. İstehlakçı əlavə ödəniş etməklə həm hazır məhsul alır, həm də vaxtına qənaət edir.

Bəs bütöv meyvə ilə hazır doğranmış və qablaşdırılmış məhsul arasında qiymət fərqi nə qədərdir?

ALICILAR QİYMƏT FƏRQİNİ HİSS ETMİRLƏR

Marketlərdə apardığımız qiymət müqayisəsi də hazır doğranmış meyvələrin bütöv məhsullarla müqayisədə daha baha olduğunu göstərir. Bananın bütöv halda kiloqramı 2,80-3,20 AZN olduğu halda, doğranıb 200-250 qramlıq plastik qablarda satıldıqda kiloqram qiyməti 7,00-8,00 AZN-ə çatır. Qarpız və yemiş mövsümündə bütöv meyvənin kiloqramı 0,80-1,20 AZN olduğu halda, dilimlənib qablaşdırıldıqda qiymət 3,50-5,00 AZN-ə yüksəlir. Ananas və qreypfrutun hazır dilimlənmiş variantında da qiymət bütöv meyvə ilə müqayisədə təxminən 2,5-3 dəfə yüksək olur.

Alıcılar adətən qiymət fərqini hiss etmirlər. Çünki ticarət məntəqələri bu məhsulları bütöv meyvələr kimi kiloqramla deyil, 150, 250 və ya 500 qramlıq kiçik porsiyalarla təqdim edirlər. Rəfdə 2,50-4,50 AZN qiymət göstəricisini görən alıcı üçün bu məbləğ cüzi görünə bilər.

Bir neçə meyvənin qarışığından hazırlanan hazır meyvə salatlarında isə kiloqram qiyməti 25,00-35,00 AZN təşkil edir.

BU MƏHSULLAR NİYƏ BAHA SATILIR?

Məsələnin iqtisadi tərəflərini şərh edən iqtisadçı Xalid Kərimli bildirdi ki, hazır doğranmış meyvələrin baha satılması ticarət sektorunun köklü prinsipləri ilə yanaşı, əlavə xərc və risklərlə də bağlıdır: "Ticarətdə dəyişməz bir qayda var. Məhsul həmişə topdan ucuz alınır, pərakəndə, yəni kiloqramla və ya ədədlə baha satılır. Hazır doğranmış məhsulların qiymət artımının arxasında bir neçə mühüm iqtisadi mexanizm dayanır. İlk növbədə ortada ciddi bir insan əməyi və əlavə xərc var. Meyvələr kəsilib doğranır, xüsusi qablara yığılır və istifadəyə hazır vəziyyətə gətirilir. Üstəlik, bu proses üçün bütün meyvələrdən istifadə olunmur, daxilindən ən yaxşı, seçilmiş məhsullar götürülür. Kəsilmiş və yuyulmuş meyvənin saxlanma şəraiti bütöv meyvədən köklü şəkildə fərqlənir və belə məhsullar daha tez xarab olur. İqtisadiyyatın ana qanunlarına görə bir işdə xarabolma riski yüksəlirsə, oradakı məhsulun qiyməti də avtomatik qalxır. Satıcı məhsulun xarabolma riskini birbaşa öz üzərinə götürdüyü üçün həmin dəyəri qiymətin üzərinə gəlir".



Yeni xidmət təklifi, dəyişən istehlak vərdişləri

İqtisadçı əlavə etdi ki, seçilmiş məhsullara əlavə əmək və qablaşdırma sərf olunmaqla alıcı üçün yeni xidmət təklifi yaradılır: "Məhsulun həcmini azaldıb porsiya ilə təqdim etmək dəyərsiz xidmət deyil. Vaxtilə bizə qəribə gələn - xaricdə insanların bazardan bir-iki ədəd pomidor alması vərdişinə artıq biz də öyrəşirik. Yalnız ehtiyacın olan qədər alanda həm evdə artıq yer tutmur, həm də xarabolma riski aradan qalxır".

Sonda bu addımın tamamilə istehlakçı seçimi olduğunu bildirən Xalid Kərimli vurğuladı ki, heç bir alıcı doğranmış meyvəni almağa məcbur edilmir: "Biz öz rahatlığımızı düşünüb, axşam saatlarında marketdən hazır və təmizlənmiş məhsul alırıqsa, təbii ki, bizə o rahatlığı verən pərakəndəçilər də bu xidmətin qarşılığında pul qazanmalıdırlar".



Xalid Kərimli



Fərid Səfərov

"Meyvənin qabığı qoruyucu baryer rolunu oynayır"

Məsələnin digər tərəfi isə qida təhlükəsizliyidir. Doğranmış meyvə bütöv meyvədən fərqli olaraq xarici mühitlə daha çox təmasda olur. Bu məhsulların necə hazırlanması, hansı şəraitdə saxlanması və satış müddətinin necə müəyyənləşdirilməsi də istehlakçı üçün qiymət qədər vacibdir.

Qida mühəndisi Fərid Səfərov "Kaspi"yə açıqlamasında bildirdi ki, hazır doğranmış və qablaşdırılmış meyvələrdə əsas risk mikrobioloji çirklənmədir: "Meyvə doğranarkən bıçaq, doğrama taxtası, işçinin əlləri, avadanlıq, qablaşdırma materialı və digər səthlər vasitəsilə mikroorqanizmlərin məhsula keçməsi mümkündür. Bundan əlavə, doğranmış meyvənin şirəsi ayrıldığı üçün mikroorqanizmlərin inkişafında daha əlverişli mühit yarana bilər. Xüsusilə düzgün temperaturda saxlanılmayan məhsullarda risk artır. Doğranma mikroorqanizmlərlə çirklənmə riskini artırır. Bütöv meyvənin qabığı müəyyən qədər təbii qoruyucu baryer rolunu oynayır. Meyvə doğrandıqda isə bu baryer pozulur və daxili hissə ətraf mühitlə təmas edir. Risk xüsusilə meyvə əvvəlcədən yaxşı yuyulmadıqda, doğrama zamanı gigiyena qaydalarına əməl edilmədikdə, çirkli alətlərdən istifadə olunduqda və məhsul uzun müddət uyğun temperaturdan kənarda saxlanıldıqda yüksəlir".

"BELƏ MƏHSUL İSTEHLAK EDİLMƏMƏLİDİR"

Mütəxəssis vurğuladı ki, doğranmış məhsulun temperaturu və saxlanma müddəti də çox önəmlidir: "Ümumilikdə soyudulmuş hazır doğranmış meyvələr üçün təxminən 0-5°C diapazonunda temperaturun qorunması məqsədəuyğundur. İstehlakçı bunları alarkən ilk növbədə qablaşdırmanın bütövlüyünə, məhsulun son istifadə tarixinə və saxlanma temperaturuna baxmalıdır. Qablaşdırma şişmiş, zədələnmiş və ya açılmışdırsa, məhsulu almaq məsləhət deyil. Meyvədə qeyri-adi rəng dəyişməsi, kif, həddindən artıq yumşalma, selikli görünüş, xoşagəlməz və ya fermentləşmiş qoxu varsa, belə məhsul istehlak edilməməlidir. Həmçinin soyuducu vitrinində saxlanmalı olan doğranmış meyvənin marketdə otaq temperaturunda və ya uyğun olmayan şəraitdə təqdim edildiyi müşahidə olunarsa, həmin məhsuldan imtina etmək daha təhlükəsizdir".

Mütəxəssis bildirdi ki, əsas məsələ məhsulun hazırlanmasından istehlakçıya çatana qədər bütün mərhələlərdə qida təhlükəsizliyi qaydalarının qorunmasıdır.

QEYRİ-ADİ YUMOR, SEVGİ VƏ PUL OYUNU

“Pullu komediya” milli kolorit, ailə münasibətləri, pul və sevgi ətrafında dolaşan komik hadisələri səhnəyə gətirir. Tamaşadakı gözlənilməz vəziyyətlər, qarışan planlar tamaşaçıya həm gülüş, həm də tanış həyat mənzərələri vəd edir.

Teatrın qapısından içəri girən tamaşaçı gündəlik qayğılarını bir neçə saatlıq unutmaq istəyir. Dövlət Milli Gənc Tamaşaçılar Teatrında premyerası keçirilən “Pullu komediya” tamaşası da məhz belə bir ovqat yaratmağı hədəfləyir. Klod Manyenin məşhur “Oskar” pyesi əsasında Xanım Aydının səhnələşdirdiyi əsər Nicat Kazımovun quruluşunda Bakı mühitinə köçürülərək milli kolorit, ailə münasibətləri, pul və sevgi ətrafında dolaşan komik hadisələri səhnəyə gətirir. Tamaşadakı gözlənilməz vəziyyətlər, qarışan planlar və insanın özünün qurduğu tələyə düşməsi tamaşaçıya həm gülüş, həm də tanış həyat mənzərələri vəd edir.

FRANSIZ KOMEDİYASINDAN BAKI ƏHVALATINA

Xanım Aydının təbdilində əsas dəyişiklik qəhrəmanların sadəcə başqa dildə danışması deyil. Tamaşada əhvalatın coğrafiyası və nəfəsi dəyişir. Fransız məişətinin içində doğulan komik vəziyyətlər Bakı mühitinə köçürülür, personajların davranışları və münasibətləri yerli tamaşaçının tanıdığı həyatın içində yeni məna qazanır.

Quruluşçu rejissor, Əməkdar artist Nicat Kazımov da bu məqamı xüsusi vurğulayır: “Pullu komediya” əslində Klod Manyenin çox məşhur “Oskar” əsəri əsasında Xanım Aydının azərbaycanlaşdırdığı bir əsərdir. Xoşuma gələn cəhət odur ki, hadisələr bizim mentalitetimizə uzaq olan Fransada deyil, məhz Bakıda baş verir”.

Bu yanaşma tamaşanın əsas üstünlüklərindən biridir. Çünki klassik əsəri milli mühitə uyğunlaşdırmaq yalnız adları və ünvanları dəyişməklə bitmir. Burada mühüm olan əsərin ruhunu qorumaqla yanaşı, onun içindəki münasibətləri yerli həyatın təbii bir hissəsinə çevirməkdir. Tamaşaçı səhnədə özünə yad bir dünyanın müşahidəçisi olmur, tanış davranışlara, ailə münasibətlərinə, pul və məhəbbət ətrafında yaranan anlaşılmazlıqlara gülür.

Əhvalatın Cəbiş müəllimin nəvəsinin evində baş verməsi də bu baxımdan maraqlı seçimdir. Bir vaxtlar tamaşaçıya tanış olmuş nəslin davamçısı indi sabun fabrikinin direktorudur. Vəzifə, maddi imkanlar və şəxsi arzuların kəsişdiyi bu evdə baş verənlər göstərir ki, zaman dəyişsə də, insan münasibətlərinin dolaşıq düyünləri çox vaxt əvvəlki kimi qalır.

PUL, SEVGİ VƏ İNSANIN QURDUĞU TƏLƏ

Tamaşanın adından da göründüyü kimi, pul hadisələrin hərəkətverici qüvvələrindən biridir. Ancaq pul burada sadəcə maddi sərvət deyil. O, insanın arzularını böyüdən, münasibətlərini sınağa çəkən, bəzən də ən ağıllı görünən adamı gülünc vəziyyətə salan vasitəyə çevrilir.

İnsan istədiyinə çatmaq üçün müxtəlif yollar axtarır, hər şeyi əvvəlcədən hesabladığını düşünür. Lakin həyatın öz hesabı var. Bir anlaşılmazlıq digərini doğurur, kiçik bir sirr böyük qarışıqlığa çevrilir, personajlar isə vəziyyətdən çıxmağa çalışdıqca daha mürəkkəb vəziyyət yaranır. Komediyanın dinamizmi də buradan yaranır.

Xanım Aydın tamaşa haqqında fikirlərini bölüşərkən onun əsas məqsədinin yalnız güldürmək olmadığını vurğulayır:

“İstəyirəm ki, tamaşaçı teatra daxil olduğu andan etibarən bir neçə saatlıq gündəlik həyatın problemlərindən uzaqlaşsın. Məncə, bu gün insanın ən çox ehtiyac duyduğu şeylərdən biri də məhz budur - bir neçə saatlıq da olsa, özünü problemlərdən azad etmək və ürəkdən gülmək”.

Bəzən sənət insanı ağır suallarla üz-üzə qoyur, bəzən isə sadəcə onun nəfəsini açır. “Pullu komediya” ikinci yolu seçir, amma bunu məzmunsuz əyləncəyə çevirmədən, insan münasibətlərinin gülməli tərəflərini ön plana çıxarmaqla etməyə çalışır.



Musiqi, ritm və aktyor ansamblı

Komediyanın uğuru çevik ritmdən, aktyorların bir-birini duyumundan və musiqinin səhnə ilə vəhdətindən asılıdır. “Pullu komediya”da “Libertango” və Nina Rotanın Hollivud filmləri üçün bəstələdiyi musiqilərin Bakı üslubunda yenidən aranjiman olunması tamaşaya xüsusi dinamika qatır. Nicat Kazımovun sözlərinə görə, premyerada tamaşaçıların gülüşü və alqışları yaradıcı heyətin arzuladığı ovqatı yaradıb. Premyera günü tamaşada Cəbiş obrazını Anar Seyfullayev, həyat yoldaşı Suğranı Əməkdar artist Kəmalə Müzəffər canlandırırlar. Mənfəət rolunda Mətləb Abuşov, Gümrah rolunda Müşfiq Elmanoğlu, Zərqələm rolunda Əməkdar artist Mehriban Abdullayeva, Duru rolunda Aygün Fətullayeva çıxış edirlər. Səfiyyə obrazını Fəridə Qurbanova, Tanya obrazını Mehriban Hüseynova, İlqar obrazını isə Sənan Kazımov ifa edirlər. Rəngarəng aktyor heyəti, musiqi və hadisələrin sürətli axarı tamaşanın canlı atmosferini formalaşdırır. Hər obrazın ümumi mənzərəyə öz rəngini qatması komik situasiyaları daha təsirli edir və tamaşaçı ilə səhnə arasında canlı ünsiyyət yaradır.


“Cəbiş, ümumiyyətlə, çox maraqlı, rəngarəng və özünəməxsus obrazdır. Onu səhnədə canlandırmaq mənə xüsusi zövq verir. Belə tamaşalar təkcə tamaşaçılara deyil, aktyorlara da yüksək əhval-ruhiyyə bəxş edir. Səhnədəki o enerji, yumor və qarşılıqlı ünsiyyət insana ayrıca bir sevinc yaşadır”, - deyə Anar Seyfullayev qeyd edir.

GÜLÜŞÜN ARXASINDAKI XOŞ OVQAT

Bəli, pərdə enir, amma tamaşanın yaratdığı təbəssüm tamaşaçı ilə birlikdə teatrdan çıxır. “Pullu komediya”nın tamaşaçıya bəxş etmək istədiyi də elə budur - doğma Bakı yumorunun müşayiəti ilə bir neçə saatlıq xoş ovqat və ürəkdən gələn gülüş.

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
14 NOYABR ŞƏNBƏ 2026
www.kaspi.az

Xankəndi stadionunun yenidən qurulması şəhərin idman həyatında yeni mərhələnin başlanğıcıdır. Bu baxımdan Peşəkar Futbol Liqasının stadionla bağlı qərarı xüsusi əhəmiyyət daşıyır.





FUTBOL XANKƏNDİYƏ QAYIDIR

İşğaldan azad edilmiş ərazilərimizdə həyatın yenidən qurulması və sakinlərin doğma yurdlarına qayıdışının təmin edilməsi məqsədi daşıyan "Böyük Qayıdış" proqramı çoxşaxəli prosesdir. Burada idman da mühüm istiqamətlərdənir. Yeni idman obyektlərinin inşası, müxtəlif yarışların təşkili və beynəlxalq tədbirlərin keçirilməsi Qarabağ və Şərqi Zəngəzurun dirçəliş prosesinə öz töhfəsini verir. Bu mənada idman "Böyük Qayıdış"ın ayrılmaz tərkib hissəsidir. Bu istiqamətdə atılan mühüm addımlardan biri Xankəndi stadionunun yenidən qurularaq müasir tələblərə uyğunlaşdırılmasıdır.

"QARABAĞ" İLƏ AÇILAN SİMVOLİK CIĞIR

2023-cü ilin sentyabrında Xankəndi şəhəri işğaldan azad olundu və Azərbaycanın suverenliyi bütün ərazisində bərpa edildi. İşğala son qoyulandan cəmi bir neçə ay sonra Xankəndidə ilk futbol oyunu keçirildi. 2023-cü il dekabrın 21-də Azərbaycan Kubokunun 1/8 final mərhələsinin "Qarabağ" - MOİK qarşılaşmasına Xankəndi stadionu ev sahibliyi etdi. Bir tərəfdə Qarabağın adını illərdir beynəlxalq arenada təmsil edən, bölgənin rəmzinə çevrilmiş "Qarabağ" klubu, digər tərəfdə isə şanlı ordumuzun təmsilçisi MOİK komandasının məhz Xankəndidə üz-üzə gəlməsi qarşılaşmanı rəmzi əhəmiyyətini artırırdı. Prezident İlham Əliyevin də izlədiyi həmin görüşün keçirilməsi xüsusi mənəvi-siyasi əhəmiyyət daşıyırdı. Bu, Azərbaycanın azad edilmiş torpaqlara həyatın bütün sahələrində qayıdış əzminin nümayişi idi.

Sonrakı dövrdə də Xankəndidə idman tədbirləri keçirildi. Keçən il orada ilk dəfə beynəlxalq yarış təşkil olundu. Belə ki, MDB Oyunları çərçivəsində kamandan oxatma yarışları Xankəndidə baş tutdu. İndi isə Xankəndi stadionu əsaslı şəkildə yenidən qurularaq müasir standartlara uyğunlaşdırılıb. UEFA-nın 3-cü kateqoriyasına uyğun olması arenada ölkədaxili yarışlarla yanaşı, beynəlxalq görüşlərin, o cümlədən avrokubok qarşılaşmalarının keçirilməsinə də imkan verir.

XANKƏNDİ STADİONU YENİ GÖRKƏMDƏ

Xankəndi stadionunun yenidən qurulması azad edilmiş ərazilərdə idman infrastrukturunun bərpası istiqamətində görülən işlərin mühüm mərhələlərindən biridir. 1956-cı ildə istifadəyə verilən arena uzun illər öz funksiyasını yerinə yetirə bilməsə də, şəhərin azad olunmasından sonra onun yenidən qurulması gündəmə gəldi. Əsaslı yenidənqurma işləri başa çatdıqdan sonra noyabrın 7-də Prezident İlham Əliyevin iştirakı ilə stadionun açılışı baş tutdu.

Yenilənmiş arena imkanlarına görə müasir idman qurğuları sırasında yer alır. Stadionun ərazisi genişləndirilib, tamaşaçı tutumu doqquz minə yaxınlaşdırılıb. Ümumilikdə stadionda müxtəlif kateqoriyadan olan qonaqların rahatlığı üçün şərait yaradılıb.

Süni örtüklü, müvafiq sertifikata malik meydanın ölçüləri beynəlxalq standartlara uyğundur. Meydançanın ətrafında atletika zonası da salınıb. Orada müxtəlif növ qaçış, uzununa tullanma və digər atletika növləri üçün müvafiq sahələr yaradılıb. Beləliklə, stadion yalnız futbol deyil, müxtəlif idman tədbirlərinin təşkili üçün də istifadə oluna bilər. Arenada komanda üzvlərinin, rəsmi şəxslərin istifadəsi üçün zəruri otaqlar, media nümayəndələri üçün iş şəraiti, konfrans zalı, tibb məntəqəsi kimi zəruri sahələr yaradılıb. Gələcəkdə hətta milli komandamızın da Xankəndidə oynaması mümkündür.



İlk oyunun vaxtı da bəllidir

Əminliklə deyə bilərik ki, stadionun yenidən qurulması Xankəndinin idman həyatında yeni mərhələnin başlanğıcıdır. Bu baxımdan Peşəkar Futbol Liqasının stadionla bağlı qərarı xüsusi əhəmiyyət daşıyır. Qurumun açıqlamasına əsasən, I Liqada mübarizə aparan "Xankəndi" və MOİK komandaları ev oyunlarını bu arenada keçirəcəklər. Beləliklə, vaxtilə yalnız xüsusi tədbirlərə ev sahibliyi edən stadion artıq müntəzəm futbol oyunlarının keçirildiyi məkan olacaq. Artıq ilk oyunun vaxtı da açıqlanıb. Noyabrın 19-da I Liqanın 8-ci turunun "Xankəndi" - "Karvan-Yevlax" oyunu ilə stadion milli çempionatda "siftə"sini edəcək.

"Xankəndi" klubunun doğma şəhərdə meydana çıxması yerli futbol ənənələrinin formalaşmasına və şəhərin ictimai həyatının canlanmasına xidmət edəcək. Digər tərəfdən, Azərbaycan Ordusunun idman sahəsindəki təmsilçisi olan MOİK-in də burada ev oyunlarını keçirməsi xüsusi məna daşıyır.

Stadionun fəaliyyətə başlaması şəhərin sosial həyatı baxımından da böyük əhəmiyyət daşıyır.

Suqovuşanda avarçəkmə yarışları ilə başlayıb Şuşada beynəlxalq turnirlərə, Xankəndidə futbol oyunundan ultramarafonlara qədər uzanan idman prosesi Qarabağ və Şərqi Zəngəzurun həyatın canlanmasını göstərən vacib amillərdəndir. Qarşıda yeni stadionların, idman qurğularının tikilişi gündəmdədir. Tezliklə Ağdamda "İmarət" stadionu da hazır vəziyyətə gətiriləcək. Kim bilir, bəlkə yaxın gələcəkdə Xankəndi və Ağdam təmsilçiləri arasında Qarabağ derbisi ölkə futboluna yeni maraq yaradacaq.